Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir. Həqiqətən, Allahın bununla (belə bir tapşırıqla) sizə verdiyi öyüd necə də gözəldir! Əlbəttə, Allah (hər şeyi) eşidəndir, görəndir!

*(Qurani-Kərim, ən-Nisa, 58)*

## BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakıda keçirilməsi ilə bağlı Təşkilat Komitəsi yaradılıb

İyulun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı il aprelin 25–27-də Bakı şəhərində keçirilməsi ilə bağlı Təşkilat Komitəsinin yaradılması haqqında Sərəncam imzalayıb. Sərəncamda BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakıda yüksək səviyyədə təşkilinin Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun daha da artırılması, Azərbaycan xalqının tarixi-mədəni irsinin geniş miqyasda tanıdılması baxımından əhəmiyyəti qeyd edilir.

səh. 4

www.scwra.gov.az

# Cəmiyyət və Din

*Dinimiz milli-mənəvi sərvətimizdir.*

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 07 (288) / İYUL 2015-ci il

# Prezident İlham Əliyev: "Milli, dini dəyərlərimiz bizim üçün hər şeydən üstündür"



***İyulun 11-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib. İftar mərasimi Qurani-Kərimdən ayələrin və Ramazan duasının oxunması ilə başlayıb.***

**Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə** mərasimdə çıxış edərək deyib:

- Bismillahir-rəhmanir-rəhim.

Zati-aliləri, möhtərəm Prezident.

Hörmətli qonaqlar,

əziz din qardaşlarım.

Mənim dəvətimi qəbul etdiyinizə və bu mərasimdə iştirakınıza görə sizə minnətdarlığımı bildirir və hamınıza "Xoş gəlmisiniz" deyirəm. Ramazan ayında – "Qurani-Şərif"in nazil olduğu bu müqəddəs ayda Azərbaycanda yaşayan dini konfessiyaların rəhbərləri ilə birlikdə iftar süfrəsi arxasında dövlət başçısı ilə bir yerdə olmaq bizim üçün həm böyük şərəfdir, həm də bu, bir ənənə halı almışdır. Bu ənənənin bünövrəsini qoyan, milli mənəvi dəyərlərimizə həyat verən Ulu Öndər Heydər Əliyev həzrətləri olmuşdur. Allah-Təala Heydər Əliyev həzrətlərinə, onun ömür-gün yoldaşı Zərifə xanıma rəhmət eləsin!

Zati-aliləri, dindarlarımız həmişə sizinlədir və Sizin müzəffər olmağınız üçün həmişə Allah-Təalaya dualar edirlər. Peyğəmbər əleyhissəlamın hədisi var, buyurur ki, əgər Allah bir xalqı istəsə ona müdrik rəhbər göndərər, o, xalqı zülmətdən nura tərəf aparacaq. Bu, həqiqətən belə oldu. Azərbaycan dağılmaqda, xəritədən silinmək ərəfəsində ikən Allahın mərhəməti, xalqın dəstəyi və çağırışı ilə Ulu Öndər Heydər Əliyev həzrətləri Azərbaycana gəldi, dövlətçiliyin bünövrəsini bərpa etdi və müstəqilliyi bizə əmanət qoyub getdi. Heydər Əliyev həzrətlərinin Azərbaycan xalqına ən böyük əmanəti isə onun siyasi kursunun və məktəbinin davamçısı İlham Əliyev həzrətləridir. Mən deyərdim ki, bu, həm də Allah-Təalanın Azərbaycan xalqına böyük lütfü və kəramidir.

Zati-aliləri, bu ilin aprel ayında Sizin Səudiyyə Ərəbistanına səfəriniz və İki Müqəddəs Ocağın Xadimi Kral həzrətlərinin hava limanına gələrək Sizi qarşılama mərasimində iştirak etməsi və Sizə olan münasibəti məndə qürur hissi oyatdı, mən bununla fəxr etdim. Çünki Kral həzrətləri çox az dövlətlərin rəhbərlərinin pişvazına çıxır. Bu, fəqət Səudiyyə Ərəbistanının Azərbaycana və onun rəhbərinə olan münasibəti deyildi. Bəlkə də bütün İslam dünyasının Azərbaycana və onun rəhbərinə olan münasibəti idi.

Xüsusən, Zati-aliləri, müqəddəs Kəbə Evinin qapılarının Sizin üzünüzə açılması. Kəbə Evinin daxilində ibadət zamanı Siz xalqımıza, Vətənimizə, torpağımıza, şəhidlərə, Ulu Öndərə dua etdiniz. Mən orada bir daha əmin oldum ki, Allah-Təalanın yandırdığı Heydər çırağını söndürmək olmaz. Xüsusən, mən bir şeyi demək istərdim. Bu 35 il ərzində mən heç bir dövlət rəhbəri üçün, ya da bir şəxsiyyət üçün Peyğəmbər zərihinin qapısının açılmasının şahidi olmamışam, nə də eşitməmişəm. Zati-aliləri, bu qapılar Sizin üzünüzə açıldı. Siz Heydər qapısından Peyğəmbərin sevimli övladı Fatimeyi-Zəhra əleyhissalamın otağına daxil oldunuz, ziyarət etdiniz. Oradan Peyğəmbər Məscidinə daxil oldunuz və Peyğəmbər mehrabını ziyarət etdiniz, əl sürtdünüz. Oradan isə Peyğəmbər əleyhissalamın qəbrinin üstünə gəlib dualar etdiniz.

səh. 2

**"Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş"** səh. 5

**Mübariz Qurbanlı: "Məscidsiz icmanın olması anormal vəziyyət idi"** səh. 7

**Azərbaycanda ilk dəfə Brayl əlifbası ilə çap edilmiş Qurani-Kərimin təqdimatı keçirilib** səh. 8

**Həzrət Məhəmməd və gənclər** səh. 13

# Prezident İlham Əliyev: "Milli, dini dəyərlərimiz

Bu, ancaq Allahı istəyən və Allahın istədiyi insanlara nəsib ola bilər. Mən arzu edərdim ki, Allah-Təala bütün müsəlmanlara, arzu edənlərə həm Məkkəni, həm Peyğəmbər zərihini ziyarət etməyi nəsib etsin, inşallah. Əlbəttə, Allah-Təala buyurur ki, sən mənə tərəf bir addım at, mən sənə tərəf on addım ataram.

Azərbaycan inkişaf etmiş bir dövlətə çevrilmişdir. Müstəqil Azərbaycan regionda lider dövlətdir. Müstəqilliyimizə heç kim xələl gətirə bilməz. Zati-aliləri, Sizin siyasətinizin nəticəsində Azərbaycan güclü, qüvvətli bir dövlətə çevrilmişdir. Azərbaycan beynəlxalq müstəvidə öz sözünü deyən, haqqını tələb edən bir dövlətə çevrilmişdir.

Azərbaycan nəinki öz iqtisadiyyatını, siyasi potensialını möhkəmləndirməklə bərabər, həm də ilklərə imza atan bir dövlətə çevrilmişdir. Buna birinci Avropa Oyunlarının Azərbaycanda keçirilməsi misal ola bilər. Bəli, Zati-aliləri, Siz demişdiniz. Avropa Oyunları yaxınlaşdıqca, bizə iftira atanlar, şayiələr yayanlar çox olacaq, çünki bizi gözü götürməyən bəzi qüvvələr də var. Amma onların heç biri istəklərinə nail ola bilmədi. Çünki söylədikləri yalan, şayiə idi. Avropa Oyunlarının açılış mərasimində dövlət rəhbərlərinin, Zati-aliləri, Sizin ətrafınızda olması və minlərlə insanın dünyanın müxtəlif nöqtələrindən Azərbaycana axışıb gəlməsi, xalqımızla təmasda, ünsiyyətdə olması, Azərbaycanın tarixi, mədəniyyəti, multikulturalizm dəyərləri, tolerantlıq ənənələri, zəngin mənəviyyatı, iqtisadiyyatı ilə tanış olması bizim qələbəmizdir. Ən böyük qələbəmiz isə o idi ki, hər dəfə bizim himnimiz çalınanda, bayrağımız ucalanda bununla bərabər, həm Azərbaycan ucalırdı, həm də onun siyasəti. Mən idmançıları da bu qələbə münasibətilə təbrik edirəm. İnanıram ki, bu, bizim böyük mənəvi qələbəmizdir.

Zati-aliləri, mən inanıram ki, inşallah, əzəli Azərbaycan əraziləri olan Dağlıq Qarabağ torpaqlarında tezliklə bayrağımız ucalacaq, himnimiz çalınacaq. Ali Baş Komandan kimi, Sizin rəhbərliyinizlə biz o torpaqları azad edərik, inşallah. Şəhidlərimizin qanı yerdə qalmayacaq. Allah onlara rəhmət eləsin!

Mən Heydər Əliyev Fondunun prezidenti, "Bakı-2015" ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım haqqında bir neçə söz demək istərdim. Mehriban xanımı arenaya dəvət etdilər. O, tribunaya yaxınlaşaraq çıxışını "Qoy, Tanrı Azərbaycanı hər zaman qorusun!" sözləri ilə başladı. Budur, yüksək mənəviyyatın təntənəsi. Mən Mehriban xanımı Azərbaycanın ən yüksək mükafatı, Ulu Öndərin adını daşıyan "Heydər Əliyev" ordeni ilə təltif olunması münasibətilə milyonlarla dindarlar adından təbrik edirəm.

Zati-aliləri, Siz Azərbaycanın adını bəşəriyyətin tarixinə qızıl hərflərlə yazdınız. Azərbaycan qədər böyük bir məşəl Avropa qitəsi üzərindən bütün dünyaya, inşallah, öz nurunu saçacaq. Bu, qardaşlıq, dostluq, tolerantlıq, multikultural, mədəniyyət nuru olmaqla bərabər, həm də Azərbaycanı tərənnüm edəcək. Bu da bizim üçün böyük fəxrdir, böyük fəxarətdir.

Azərbaycanda milli mənəvi dəyərlərimiz inkişaf edir. Məscidlər, ziyarətgahlar, sinaqoqlar, kilsələr tikilir, ya da bərpa olunur, dindarların istifadəsinə verilir. Azərbaycan dindarlarına ən böyük töhfəniz isə paytaxtımızın mərkəzində əzəmətlə ucalan Heydər məscidi oldu. Qafqazda analoqu olmayan bu məscidin, arxitektura baxımından, deyərdim, bəlkə də dünyada analoqu yoxdur. Heydər məscidinin 95 metrlik minarələri Azərbaycanda milli mənəvi dəyərlərin ucalığını göstərir.

Mən bir şeyi də deməyə bilmərəm. Bu gün dünyada baş verən hadisələrə nəzər yetirəndə, görürük ki, dünya, təəssüflər olsun, mənəvi uçuruma, tənəzzülə doğru gedir. Çox təhlükə var. Müsəlman müsəlmanın qanını tökür, məscidlər, sinaqoqlar, kilsələr dağılır, insan qanı axıdılır. Avropada xristian-müsəlman qarşıdurması, dinlər, məzhəblər arasında qarşıdurma, islamofobiya. Bu, nə Musa, nə İsa, nə də Peyğəmbər əleyhissalamın dinində yoxdur.

Zati-aliləri, Siz bir dəfə burada, iftar süfrəsində çıxış edəndə dediniz ki, Azərbaycanda olan tolerantlıq, dostluq, münasibətlər, dinlər arasında münasibət, qardaşlıq başqa dövlətlər üçün nümunə ola bilər. Bu, Sizin Azərbaycan xalqına olan böyük mükafatınızdır.

Allah-Təala Sizi qorusun, ailənizi qorusun!

Allah-Təala bizim ibadətlərimizi, dualarımızı, oruc və namazlarımızı qəbul etsin. Bir daha Sizin hamınıza "Xoş gəlmisiniz" deyirəm. Əssalamu aleykum və rəhmətullahi və bərəkatuhu!

* * *

**Rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının rəhbəri Aleksandr** çıxış edərək deyib:

- Möhtərəm cənab Prezident.

Hörmətli şeyx həzrətləri.

Hörmətli dini liderlər, səfirlər.

Xanımlar və cənablar.

Mən ilk növbədə bütün dindarları səmimi qəlbdən Ramazan ayı münasibətilə təbrik edirəm. Oruc dindarların həyatında xüsusi yer tutur. Bu dövrdə biz heç vaxt olmadığı qədər dərk edirik ki, bu hökm Tanrı tərəfindən verilib. Biz dərk edirik ki, yalnız öz dünyəvi varlığımızın qayğısına qalmamalıyıq, həm də Allah-Təala tərəfindən bizə göndərilən hökm və nəsihətləri yerinə yetirməliyik.

Əlbəttə ki, mən bu ayın uğurla başa çatmasını və Ramazan bayramının layiqincə qeyd olunmasını arzulayıram. Ən başlıcası isə yaddaşımızda olan Bakıda keçirilmiş birinci Avropa Oyunlarının bizdə yaratdığı təəssüratlardır. Lakin tolerantlığın və multikulturalizmin dini fəaliyyətin, dini həyatın bir hissəsi olduğunu düşünmək bir o qədər düzgün deyil. Çünki multikulturalizm özünü hər sahədə təzahür etdirir. Elə birinci Avropa Oyunlarının Bakıda keçirilməsi də Azərbaycanda həyata keçirilən daxili siyasətin parlaq ifadəsi, mən deyərdim, apofeozudur.

Multikulturalizm özünü tam şəkildə büruzə verdi, nə demək olduğunu və nə kimi bəhrələr verdiyini göstərdi. 1990-cı illərin sonlarını, Ümummilli Liderimiz Heydər Əliyevin Zuğulbada idman kompleksini bərpa etdiyi vaxtları xatırlayıram. Bəziləri çaşqınlıq içərisində düşünürdülər ki, ölkədə çətinliklərin olduğu bir dövrdə idman komplekslərinin bərpasına ehtiyac varmı? Mən deyərdim ki, istənilən ölkənin gələcəyi gənclərdən asılıdır. O zaman Azərbaycanın bütün çətinliklərinə, dövlətin üzləşdiyi sınaqlara baxmayaraq, ölkə böyüməkdə olan nəslin qayğısına qalırdı.

Cənab Prezident, Bakıda ilk Avropa Oyunlarının keçirilməsinin təşkilinə verdiyiniz böyük töhfəyə görə Sizə xüsusilə təşəkkür etmək istəyirəm. Bu, bizim üçün əsl bayram idi. Başa düşürəm ki, bu Oyunların keçirilməsinin təşkil edilməsi o qədər asan məsələ deyildi, lakin buna baxmayaraq, Azərbaycan özünün layiqli dövlət, dünya birliyinin layiqli ölkəsi olduğunu, dövlətlərarası siyasətdə, iqtisadiyyatda və mədəni münasibətlərdə həyata keçirilməli olan xeyirxah işlərdə hər hansı dövlətin tərəfdaşı ola biləcəyini tam şəkildə göstərdi. Buna görə Sizə ürəkdən təşəkkür etmək istəyirəm.

* * *

**Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev** çıxış edərək deyib:

- Möhtərəm Prezident.

Şeyx həzrətləri.

Əziz və hörmətli qonaqlar.

Şeyx həzrətləri çıxışında bütün məqamlara toxundu. Mən belə fikirləşirəm ki, o məqamlara bir daha toxunmaq lazım deyil. Mən yalnız bir məsələni qeyd etmək istərdim, Azərbaycanın xoşbəxtliyi ondadır ki, onun Heydər Əliyev kimi Ulu Öndəri, İlham Əliyev kimi Prezidenti var. Allah-Təala onları Azərbaycan xalqına əziz və əvəzsiz bir nemət olaraq bəxş etmişdir.

Möhtərəm Prezident, Sizin bugünkü arzularınız bizim sabahkı günlərimizdir.

Arzunu yazmışam mən arzularda,
Arzunu görmüşəm ayna sularda.
Dərdi tək çəkmişəm, çətində, darda,
Sevinci hamı ilə bölən olmuşam.

Möhtərəm Prezident, Siz sevinci nəinki bizimlə, bütün dünya ilə böldünüz. Biz böyük qürur hissi ilə Sizin Atəşgahda Avropa Oyunlarının məşəlini yandırmağınızı izləyirdik. Bu məşəl Azərbaycan xalqının ürəyinin məşəlidir. Həmçinin o məşəl Sizin qəlbinizin, ürəyinizin odu, atəşidir. Çox müdrik bir addımla o məşəli Siz Azərbaycanın bütün guşələrinə göndərdiniz. Bununla da Siz Azərbaycanı öz ürəyinizin odu ilə qızdırıb, işığı ilə nura qərq etdiniz.

Möhtərəm Prezident, biz yəhudilər də Azərbaycanda, bu məmləkətdə bu xalqın, bu dövlətin bütün qələbələrinə sevinir və Sizinlə çiyin-çiyinə addımlayırıq. Bizim xalqımıza qəriblik qismət yazılıb və biz də onu qəbul etmişik. Amma bizim harada olmağımızdan, harada yaşamağımızdan asılı olmayaraq, biz Azərbaycanı doğma bilib onu qəlbimizdə, ürəyimizdə, gözümüzdə, ruhumuzda, şüurumuzda yaşadırıq.

Mən ki, tanımıram belə bir məkan,
Ana yurddan, doğma evdən əzizdir.
Vətən torpağının qaratikanı,
Yad ellərdə bitən güldən əzizdir.

Ona görə də, ayın 23-24-də Amerika Birləşmiş Ştatlarından 150 nəfərə yaxın azərbaycanlı yəhudi Azərbaycanın bu cahanşümul qələbələrini təbrik etmək, gözaydınlığı vermək üçün Bakıya gələcəklər.

Möhtərəm Prezident,

Şeyx həzrətləri,

Siz bu dəqiqə qeyd etdiniz ki, bütün şəhidlərimizə Allah-Təaladan rəhmət diləyək. Allah-Təala bizə qismət etsin ki, Qarabağ torpaqları azad olunsun, bizim uca bayrağımız Qarabağ səmasında dalğalansın. Xudavəndi-Aləm bütün oruclarınızı, dualarınızı qəbul edib, əvəzində hamınıza İbrahim peyğəmbər ömrü, böyük ailə səadəti nəsib etsin. Allah elə etsin ki, yollarınız uğurlu, işləriniz avand, çörəyiniz isti, suyunuz sərin, gözünüz işıqlı, diziniz taqətli olsun. Allah amanında!

* * *

Dövlətimizin başçısı mərasimdə çıxış edib.

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı:

- Hörmətli Şeyx həzrətləri.

Hörmətli din xadimləri.

Hörmətli mərasim iştirakçıları.

İlk növbədə, sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Hər bir Azərbaycan ailəsinə sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayıram.

Bizim mübarək Ramazan ayında görüşlərimiz ənənəvi xarakter daşı-

⇨ 3



# bizim üçün hər şeydən üstündür”

2 ⇦ yır. Bu ənənəni Ulu Öndər Heydər Əliyev və şeyx həzrətləri qoymuşlar. Bu ənənə yaşayır və yaşayacaqdır. Əslində bu, din-dövlət münasibətlərinin çox gözəl təzahürüdür. Azərbaycanda din-dövlət münasibətləri sağlam təməl üzərində formalaşıb və inkişaf edir. Bu, hər bir ölkə üçün önəmli məsələdir. Bizim amalımız birdir. Bizim amalımız Azərbaycanı inkişaf etdirmək, Azərbaycan xalqının maraqlarını müdafiə etmək və Azərbaycanı daha da güclü dövlətə çevirməkdir. Biz bu məqsədə doğru inamla, uğurla irəliləyirik.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətləri vardır. Əgər 1993-cü ildə Azərbaycan xalqı onu hakimiyyətə dəvət etməsəydi, Azərbaycanın taleyi çox ağır ola bilərdi. Əslində müstəqilliyimizin ilk illəri bunu əyani şəkildə göstərmişdir. Məhz onun qətiyyəti, siyasəti, cəsarəti, müdrikliyi nəticəsində Azərbaycan ağır sınaqlardan üzüağ çıxmışdır, inkişaf yoluna qədəm qoymuşdur və bugünkü Azərbaycan reallıqları məhz o illərdə başlanmışdır.



Şeyx həzrətləri nəinki Azərbaycanda, Qafqazda, dünya miqyasında din xadimi kimi böyük rəğbətə malik olan bir şəxsiyyətdir. Əlbəttə ki, Ulu Öndər Heydər Əliyevin siyasi bacarığı, şeyx həzrətlərinin din aləmində bacarığı, dünyagörüşü, müasirliyi bugünkü Azərbaycanın reallıqlarını 1990-cı illərin ortalarında mümkün etmişdir. Bu gün din-dövlət münasibətləri, o cümlədən mənimlə şeyx həzrətləri arasındakı münasibətlər dostluğa söykənir. Bir daha demək istəyirəm ki, Azərbaycanın inamlı, uğurlu inkişafı çox möhkəm təməl üzərində qurulubdur.

Əlbəttə ki, iqtisadi inkişafımız bizi sevindirir. Bu da düşünülmüş siyasətin nəticəsidir. Beynəlxalq nüfuzumuz kifayət qədər yüksəkdir. Bu gün Azərbaycan dünya miqyasında böyük dəstəyə və hörmətə malik olan bir ölkədir. Ancaq möhkəm təməl olmasaydı, biz bu nailiyyətlərə çata bilməzdik. Düşünülmüş siyasət, xalqla iqtidar arasındakı birlik, din-dövlət münasibətlərinin möhkəm təməl üzərində qurulması bizim uğurlarımızın əsas şərtidir.

Bu gün Azərbaycan müstəqil dövlət kimi ən yüksək zirvələrə çatıb. Əgər tarixə nəzər salsaq, görərik ki, Azərbaycan xalqı heç vaxt indiki kimi yaxşı yaşamamışdır, Azərbaycan heç vaxt indiki kimi güclü olmamışdır. Bu uğurlar cəmi 24 il ərzində qazanılıb. Özü də müstəqilliyin ilk illəri acınacaqlı və fəlakətli illər idi.

Dünyada 200-dən çox ölkə var. Onların hamısı müstəqildir. Ancaq bir çox hallarda bu müstəqillik ya yarımçıqdır, ya da şərti xarakter daşıyır. Biz isə sözün əsl mənasında müstəqil dövlətik, bununla fəxr edirik, hər bir vətənpərvər Azərbaycan vətəndaşı bununla fəxr edir.

Dövlət, eyni zamanda, Azərbaycanda dinlərarası münasibətlərin tənzimlənməsində də öz rolunu oynayır. Azərbaycanda keçirilən çoxsaylı beynəlxalq forumlar, konfranslar, dinlərarası dialoqla, multikulturalizmlə, humanitar məsələlərlə bağlı forumlar, əlbəttə ki, ölkəmizi dünyaya nümunəvi ölkə kimi təqdim edir, eyni zamanda, Azərbaycanda dinlərarası münasibətlərin gələcəkdə də sağlam şəkildə inkişaf etməsinə şərait yaradır. Azərbaycanda İslam dini ilə bağlı çoxsaylı tədbirlər keçirilir. Bu tədbirlərdə həm bizim qonşu dövlətlərdən nümayəndələr iştirak edir, eyni zamanda, uzaq ölkələrdən qonaqlar gəlir. Yəni, budur bugünkü Azərbaycanın reallıqları. Dövlət bu istiqamətdə öz səylərini göstərir və göstərəcək.

Azərbaycanda bütün tarixi məscidlərimiz dövlət hesabına əsaslı şəkildə bərpa edilibdir. Bibiheybət, Təzəpir, Əjdərbəy məscidləri, 743-cü ildə tikilmiş, müsəlman aləmində ən qədim məscidlərdən biri olan Şamaxı məscidi, “İmamzadə” Dini Kompleksində indi əsaslı təmir-bərpa işləri aparılır. Əlbəttə ki, keçən ilin sonlarında Heydər Məscidinin tikilib istifadəyə verilməsi tarixi hadisə idi.

Bir neçə il bundan əvvəl mən Məkkə ziyarətində müqəddəs Kəbənin içində dualar edərək niyyət etmişdim ki, Azərbaycanda böyük, möhtəşəm məscid tikiləcək və bu məscidin adı Heydər Məscidi olacaq. Bu ilin aprel ayında mənə yenidən Kəbənin içində dualar etmək xoşbəxtliyi nəsib olub. Şeyx həzrətlərinin dediyi kimi, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanı Kralının şəxsi göstərişi ilə müqəddəs Kəbənin qapıları mənim, şeyx həzrətlərinin, ailə üzvlərimin üzünə açılmışdır və yenidən müqəddəs Kəbənin içində dualar edərək, ürəyimdə dedim ki, Heydər Məscidi tikildi. Bir müsəlman kimi mənim üçün bundan böyük xoşbəxtlik ola bilməz. Bu, atamın ruhu qarşısında mənim borcumdur. Bir müsəlman kimi mən xoşbəxt adamam ki, buna nail ola bilmişəm və eyni zamanda, xoşbəxt adamam ki, müqəddəs Kəbənin içində üç dəfə dualar etmişəm.

Səudiyyə Ərəbistanında səfərdə olarkən mən İslam Əməkdaşlıq Təşkilatını da ziyarət etdim. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Təşkilatın baş katibi ilə görüşüm, çox məqamlar ətrafında apardığım fikir mübadiləsi bir daha göstərir ki, Azərbaycan bu təşkilatın fəal və dəyərli üzvüdür. May ayında isə İslam Əməkdaşlıq Təşkilatının baş katibi cənab Mədəni Azərbaycanda səfərdə idi və Bakıda keçirilmiş Sivilizasiyalararası Dialoq Forumunda çıxışında Azərbaycanda dini məsələlərin nə qədər yüksək səviyyədə həll olunduğunu xüsusilə qeyd etmişdir. Ümumiyyətlə, bütün müsəlmanları birləşdirən təşkilatın rəhbərinin Azərbaycan, ölkəmizin reallıqları haqqında sözləri əlbəttə ki, böyük qiymətə malikdir. Qeyd etməliyəm ki, may ayında keçirilmiş tədbirdə UNESCO-nun, İslam Əməkdaşlıq Təşkilatının, ISESCO-nun baş katibləri və digər qonaqlar iştirak etmişlər. Onların iştirakı əslində Azərbaycanda bu sahədə görülən işlərə verdikləri yüksək qiymətdir. Bizim üçün bu, adi hala çevrilib. Azərbaycanda hökm sürən ab-hava, dinlərarası, millətlərarası münasibətlər, multikulturalizm dəyərləri - bunlar bizim üçün həyat tərzidir. Ancaq əgər biz bəzi başqa ölkələrə nəzər yetirsək görərik ki, bu, heç də hər yerdə belə deyil. Əksinə, milli, dini zəmində qarşıdurmalar, müharibələr, toqquşmalar baş verir, məzhəb zəminində qan tökülür. Bu, dözülməzdir və mən də şeyx həzrətlərinin sözləri ilə razıyam ki, bugünkü dünyada proseslər daha çox mənfi istiqamətdə gedir. Biz bir il bundan əvvəl bu salonda toplaşmışdıq. Görün, bu bir il ərzində dünyada nə qədər böyük təhlükələr yarandı, hansı ki, bir il bundan əvvəl onlar haqqında heç söhbət aparılmırdı.

Dinlərarası münasibətlərdə böhran yaşanır. İslamafobiya, ksenofobiya, antisemitizm meyilləri güclənir. Multikulturalizm dəyərləri haqqında hətta yüksək vəzifə sahibləri tərəfindən çox təhlükəli ifadələr səslənir ki, multikulturalizm iflasa uğrayıb, multikulturalizm işləmir və onun gələcəyi yoxdur. Gəlsinlər, Azərbaycana baxsınlar. Azərbaycanda multikulturalizm yaşayır, möhkəmlənir. Heydər Məscidinin açılışında mən, şeyx həsrətləri, Aleksandr ata, Milix Yevdayev çıxış etmişik. Budur, bizim reallıqlarımız. Bu, bizim üçün adi qaydadır. Ancaq, eyni zamanda, bizim xristian, yəhudi qardaşlarımızın orada çıxışı bir mesaj, siqnal idi, həm Azərbaycan cəmiyyətinə, həm bölgəyə, həm də dünyaya. Bax, belə olmalıdır. Budur, normal həyat tərzi, budur, normal siyasət.

Bir daha demək istəyirəm ki, Azərbaycanın gələcək uğurlu inkişafı məhz bu istiqamətdə ola bilər. Biz heç vaxt imkan verə bilmərik ki, hansısa kənar bir qüvvə Azərbaycanda dini, yaxud da ki, milli zəmində nifaq toxumlarını səpsin. Azərbaycan dövləti buna heç vaxt imkan verməyəcək və Azərbaycan reallıqları bunu əyani şəkildə göstərir.

Biz Azərbaycanda əlbəttə ki, bu işləri ən yüksək səviyyədə tənzimləmişik. Bizim gələcək inkişafımız uğurla davam etdiriləcək. Ancaq biz istəyirik ki, hər yerdə belə olsun. Əgər hər yerdə belə olarsa, o zaman dini zəmində qarşıdurmalar da olmayacaq, qan tökülməyəcək və insanlar yaradıcılıqla məşğul olacaq, öz həyatlarını quracaq, ailələrinə diqqət yetirəcəklər. Ona görə Azərbaycanda multikulturalizmlə, dinlərarası dialoqla bağlı keçirilən tədbirlərin çox böyük mənası var.

Azərbaycan nümunəvi bir ölkədir. Onu Azərbaycana gələn hər bir qərəzsiz qonaq görür və etiraf edir. İstənilən sahədə - şəhərimizin gözəlliyi, təhlükəsizlik, iqtisadi inkişaf, sosial ədalət, din-dövlət münasibətləri, dinlərarası dialoq, imkanlarımız və Avropa Oyunlarının keçirilməsi bizim potensialımızı bütün dünyaya göstərdi. Biz bu potensialı bilirdik. Biz bilirdik ki, nəyə qadirik. Ancaq bəziləri bunu bilmək, görmək istəmirlər, ağa qara deyirlər, bizə şər, böhtan atırlar. Bizim heç kimlə işimiz yoxdur, öz həyatımızı qurmuşuq, heç kimə də heç bir məsələni diktə etmirik. Ancaq heç vaxt imkan vermərik ki, hansısa bir kənar qüvvə bizə diktə etsin. Biz müstəqil ölkəyik, ləyaqətli ölkəyik. Azərbaycan xalqının taleyi onun öz əlindədir. Ona görə Azərbaycana gələn qərəzsiz, xoşniyyətli insanlar bu reallıqları görürlər. Biz ölkə daxilində bütün əsas məsələləri həll etmişik. Əlbəttə ki, sosial problemlər var, torpaqlarımız işğal altındadır, qaçqınların bir hissəsi hələ ki çox ağır vəziyyətdə yaşayır, ancaq onların problemləri həll olunur. Bu, qarşımızda duran problemlərdir, biz onları həll edəcəyik, o cümlədən Dağlıq Qarabağ məsələsi də Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunacaq. Bunun başqa yolu yoxdur. Azərbaycan heç bir başqa variantla heç vaxt razılaşmayacaq.

Ancaq biz digər sahələrdə, - sosial ədalət, iqtisadi inkişaf, dinlərarası dialoq, - artıq bütün lazımi tədbirləri görmüşük ki, bax, bu möhkəm təməl qurulub. Biz istəyirik ki, dünyada da belə olsun. Biz istəyirik ki, ölkələr arasındakı əlaqələr əməkdaşlıq üzərində qurulsun. Rəqabət üzərində qurulmasın, xoş niyyət üzərində qurulsun. Biz öz işlərimizi bu istiqamətdə davam etdirəcəyik.

Bir məsələni də vurğulamaq istəyirəm, milli, dini dəyərlərimiz bizim üçün hər şeydən üstündür. Biz çalışmalıyıq və çalışırıq ki, bizim gənclərimiz də milli ruhda böyüsünlər, tərbiyə alsınlar. Milli ruhda, eyni zamanda, multikulturalizm ruhunda. Burada heç bir ziddiyyət yoxdur. Hər bir vətənpərvər insan, öz vətənini, millətini sevən insan böyük hörmətə layiqdir. Eyni zamanda, başqa dinlərə hörmət edən, başqa millətdən olan insanlara hörmətlə yanaşan insan da böyük hörmətə layiqdir. Ona görə bizim gənclərimiz bax, bu ruhda tərbiyə olunmalıdır. Biz gənclərimizi kənar təsirlərdən qorumalıyıq. Kənar təsir cəhdləri var, biz hamımız bunu yaxşı bilirik. Nə qədər gücüm varsa, mən bu kənar təsirin qarşısında duracağam və heç kimə imkan verməyəcəyəm ki, kimsə öz iradəsini Azərbaycana diktə etsin.

⇨ 4

# Prezident İlham Əliyev: “Milli, dini dəyərlərimiz bizim üçün hər şeydən üstündür”

3 ⇦ Azərbaycan gəncləri vətənpərvərdir, biliklidir, savadlıdır. Birinci Avropa Oyunları bunu bir daha göstərdi. Bu Oyunlarda iyirmi minə yaxın könüllü iştirak etmişdir. Onlar təmənnasız iştirak etmişlər, gecə-gündüz, səhərdən axşama qədər çalışmışlar. Azərbaycan gəncliyi budur. Bilikli, xarici dili bilən, savadlı, peşəkar, mədəni, gözəl gənclərdir. Onların hər birinə artıq mənim adımdan və Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın adından təşəkkürnamə sertifikatı verilməyə başlanmışdır. Onlar buna layiqdirlər. Bizim gənclər milli ruhda, vətənpərvərlik ruhunda böyüməlidirlər, eyni zamanda, savadlı, bilikli olmalıdırlar.

Bu gün dünyada terrorizm, ekstremizm, radikalizm meyilləri baş alıb gedir. Hər yerdə - Yaxın Şərqdə, Avropanın özündə, müxtəlif yerlərdə. Bunun təzahürləri fərqli ola bilər. Ancaq mahiyyət etibarilə bu, necə deyərlər, bir anlayışdır. Buna qarşı ən gözəl sığorta, ən gözəl sədd təhsildir. Bilikli, savadlı insan çox nadir hallarda yolunu aza bilər. Savadsız insanların beynini zəhərləmək asandır. Ona görə bizim gənclər savadlı, biliklidirlər. Biz bunu təqdirlə qeyd edirik və bizim siyasətimiz bundan sonra bu istiqamətdə davam etdiriləcək. Burada həm dövlət qurumları, həm dini qurumlar yenə də bir yerdə olmalıdır. Azərbaycanda həm ali, həm orta məktəblərdə, eyni zamanda, dini təhsil yüksək səviyyədə olmalıdır. Azərbaycan dövləti bu istiqamətdə bütün lazımi tədbirləri görür və görəcəkdir.

Bir sözlə, əziz dostlar, bugünkü iftar məclisində biz bir daha ürək sözlərimizi ifadə edirik. Ölkəmizin gələcəyi ilə bağlı fikirlərimizi bildiririk. Qeyd etməliyəm ki, mən Azərbaycanın gələcəyini çox parlaq görürəm. Çünki biz haqq yolundayıq, ədalət yolundayıq. Azərbaycanda ictimai-siyasi vəziyyət çox sabitdir. Xalqla iqtidar arasındakı birlik bizi daha da gücləndirir. Heç bir qüvvə bizim uğurlu yolumuza təsir edə bilməz.

Bütün dünya müsəlmanlarını qarşıdan gələn mübarək bayram münasibətilə bir daha təbrik edirəm.

* * *

**Şeyxülislam Allahşükür Paşazadə** deyib:

- Cənab Prezident, bizə və dinə olan münasibətinizə görə Sizə minnətdarlığımı bildirirəm. Məni yenə də o Kəbə Evinin içərisinə apardınız, kövrəltdiniz. Allah-Təaladan arzu edirəm ki, burada olanların hamısına bir daha Kəbə Evində olmağı və dua etməyi nəsib etsin, inşallah.

Sizin hamınıza mərasimimizə gəldiyiniz üçün minnətdaram.

* * *

Sonra iftar süfrəsi açılıb.

## Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik

**Hörmətli həmvətənlər!**

Mübarək Ramazan bayramı münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı insanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağırır, onları əmin-amanlıq, qardaşlıq, mərhəmət, şəfqət və bərabərlik yoluna dəvət edir, əxlaqi saflığın, xeyirxah əməllərin təntənəsini nümayiş etdirir. İnsanların qəlbini və ruhunu ilahi hikmətlərlə nurlandıran bu bayram günlərində mömin vətəndaşlarımız din qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirir, mənəvi zənginliyin, əxlaqi kamilliyin sevincini yaşayırlar.

Bu günlər ölkəmizin hər yerində xalqımızın əmin-amanlığı üçün dualar səslənir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. İnanıram ki, bu müqəddəs bayram günlərində sizin dua və dilələriniz, saf niyyətiniz Tanrı dərgahında qəbul ediləcək, Uca Yaradan öz mərhəmətini sevimli xalqımızdan əsirgəməyəcəkdir.

**Əziz bacı və qardaşlarım!**

Bu müqəddəs bayramın dövlət səviyyəsində qeyd edilməsi bizim multikultural və tolerant prinsiplərə necə yüksək qiymət verməmizi nümayiş etdirir. Bu gün biz dünyaya bir daha qəlbimizdəki milli dəyərlərə sadiq olduğumuz qədər bəşəri dəyərləri də yaşatdığımızı bəyan edirik. Dini, milli rəngarəngliyimizi mənəvi bütövlüyümüzün zənginliyi kimi qəbul edirik. Elə buna görə də bu əziz gün münasibətilə hər bir vətəndaşımıza, ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza səmimi bayram təbriklərimi çatdırır, ailələrinizə firavanlıq və xoşbəxtlik, süfrələrinizə xeyir və bərəkət arzulayıram.

**Ramazan bayramınız mübarək olsun!**

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 iyul 2015-ci il*

## BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakıda keçirilməsi ilə bağlı Təşkilat Komitəsi yaradılıb

*(əvvəli 1-ci səhifədə)*

Xatırlanır ki, 2014-cü il sentyabrın 26-da BMT Baş Assambleyasının 69-cu sessiyası çərçivəsində təşkilatın Sivilizasiyalar Alyansı Dostlar Qrupunun Nazirlər Toplantısında Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı ildə Azərbaycanın paytaxtında keçirilməsi barədə qərar qəbul edilib.

Sərəncamda vurğulanır ki, tolerantlığın məkanı, multikultural ənənələrə sadiq müstəqil Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub saxlanması və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönəlmiş mühüm layihələrin, mötəbər forumların gerçəkləşdirilməsi sahəsində zəngin təcrübəyə malikdir.

Sərəncama əsasən, Təşkilat Komitəsi BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakıda keçirilməsi ilə bağlı zəruri məsələləri, Nazirlər Kabineti isə bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.



## Dini tarix və mədəniyyət abidələrinin bərpasına dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycanda dini tarix və mədəniyyət abidələrinin bərpasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 17 iyul 2015-ci il.

# Elmin İnkişafı Fondu elmi-tədqiqat proqramları üzrə layihələri dəstəkləyəcək

***Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu (EİF) 2014-cü il üçün elan olunmuş əsas qrant müsabiqəsi çərçivəsində təqdim edilən kompleks elmi-tədqiqat proqramları üzrə layihələrin ekspertizasının nəticələrini açıqlayıb.***

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) və təhsil sistemindəki təşkilatlar və digər qurumlar tərəfindən təqdim edilmiş bu tip proqram layihələrinin böyük maliyyə həcmli qrantlar (100 min–500 min manat arası) yolu ilə maliyyələşdirilməsinin əsas məqsədi elmi-tədqiqat müəssisələrinin, bölmə və mərkəzlərinin, elmlə əlaqəli digər qurumların fəaliyyətini stimullaşdırmaq, müxtəlif elm sahələrində yerinə yetirilən elmi-tədqiqat işlərini (xüsusilə multidissiplinar araşdırmaların) dəstəkləmək, maddi-texniki təminatının müasir tələblərə cavab verən səviyyədə yenilənməsi, qısa müddətdə rəqabət apara biləcək elmi nəticələrin alınmasına şərait yaratmaq, müasir elmi-tədqiqat qrupları, laboratoriyalar, mərkəzlər (o cümlədən, beynəlxalq əməkdaşlıq çərçivəsində) yaratmaqdır. Layihələrdə maliyyə və maddi-texniki təminatla (cihazlar, qurğular və avadanlıqlar) yanaşı, paralel olaraq ezamiyyətlər yolu ilə elmi kadr hazırlığı da nəzərdə tutulub.

Müsabiqənin əsas prioritetləri azərbaycançılıq ideologiyası, multikulturalizm, sivilizasiyalararası dialoq, yüksək texnologiyalar və yüksək xassəli materiallar, elektron elmin formalaşması və inkişaf, biofizika, biotəbabət, molekulyar biologiya və biotexnologiyalar, genomika, molekulyar genetika, tibbin müasir problemləri, əczaçılıq, geofizika və hidrologiya, neft tədqiqatları, neft kimyası, qeyri-üzvi materialşünaslıq, aqrar tədqiqatlar, torpaqşünaslıq, ərzaq problemləri və s. olub.

2014-cü il üçün əsas qrant müsabiqəsinin kompleks elmi-tədqiqat proqramları üzrə layihələr arasından 14 qalib layihə müəyyənləşdirilib və fondun Himayədarlar Şurasının müvafiq qərarı ilə təsdiqlənib. Digər layihələr üzrə əlavə qərar qəbul ediləcək.

Qalib layihələr AMEA-nın Fizika, Radiasiya Problemləri, İnformasiya Texnologiyaları, Geologiya və Geofizika, Botanika, Kataliz və Qeyri-üzvi Kimya, Neft-kimya Prosesləri, Fəlsəfə və Hüquq institutlarında, Təcrübə-Sənaye Zavodunda, həmçinin Bakı Dövlət Universitetində, Milli Onkologiya Mərkəzində yerinə yetiriləcək.

Elmin İnkişafı Fondu gələcəkdə də kompleks elmi-tədqiqat proqramları üzrə böyük maliyyə həcmli və uzunmüddətli qrant layihələrini dəstəkləyəcək.

# "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş"




Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM), Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Bakı Slavyan Universitetinin birgə təşkilatçılığı ilə "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş" adlı beynəlxalq yay məktəbi layihəsinə start verilib.

Cari ilin yaz semestrində "Azərbaycan multikulturalizmi" fənninin tədris olunduğu yerli və xarici universitetlərdə təhsil alan tələbələrin, nüfuzlu elm adamlarının qatılacağı yay məktəbi iyulun 21-dən başlayıb və avqustun 1-dək fəaliyyət göstərəcək.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidmətinin ideyası və təşəbbüsü ilə keçirilən yay məktəbinə 8 xarici və 7 yerli universitetin tələbələri ilə yanaşı, tanınmış azərbaycanlı və avropalı elm adamları da qatılıblar.

Belarus Dövlət və Linqvistik universitetləri, Çexiyanın Praqa Karlov və Masarik universitetləri, Litvanın Pedaqoji və Vytautas Maqnus universitetləri, Tiflis Dövlət Universiteti, Rusiyanın Ural Federal Universiteti və Rus Dili Dövlət İnstitutu, İtaliyanın La Sapienza və Neapol universitetləri, Bolqarıstanın Müqəddəs Kliment Oxridski adına Sofiya Universiteti, Türkiyənin Ardahan və Sakarya universitetləri, ADA Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Texniki Universiteti, Lənkəran Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Gəncə Dövlət Universiteti, Bakı Ali Neft Məktəbinin bütövlükdə 70 tələbəsinin qatıldığı yay məktəbində yerli və xarici alimlərin mühazirələri dinlənilir.

Paytaxtla iki günlük tanışlıqdan sonra iştirakçılar Dövlət müşaviri, akademik Kamal Abdullayev, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Bilik Fondu və Bakı Slavyan Universitetinin rəhbərliyi ilə görüşlər keçiriblər.

Müxtəlif ölkələrin müəllim və tələbə heyətini Bakıda görməkdən məmnunluğunu ifadə edən Dövlət müşaviri deyib ki, Azərbaycan dövləti bütün bölgələrin inkişafına xüsusi diqqət ayırır: "Mən sevinirəm ki, sizin Azərbaycanı nəzəri şəkildə öyrənməyiniz ölkəmizi öz gözlərinizlə görməyinizlə tamamlanacaq. Azərbaycan Prezidenti İlham Əliyev belə bir söz deyib: "Multikulturalizmin alternativi yoxdur". Azərbaycanda multikulturalizm yaşayır və inkişaf edir. Siz bunu hər görüşünüzdə, hər mühazirənizdə, hər bir insanla ünsiyyətdə olacağınız zaman görəcəksiniz".

Dövlət müşaviri yay məktəbinin iştirakçıları arasında dostluğun bundan sonra da davam edəcəyinə əminliyini ifadə edib, indiyədək Azərbaycanın bir sıra beynəlxalq tədbirlərə ev sahibliyi etdiyini vurğulayaraq birinci Avropa Oyunlarının möhtəşəm təşkilindən, bu tədbirin ölkəmizi dünyaya daha da yaxından tanıtmasından söz açıb.

Qubada keçirilmiş tədbirdən əvvəl isə Rayon İcra Hakimiyyəti rəhbərliyinin və yerli ictimaiyyətin nümayəndələrinin




müşayiəti ilə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət ediblər. Sonra Qubadakı Heydər Əliyev Mərkəzi ilə tanışlıq olub. BBMM-in layihələr şöbəsinin müdiri Hikmət Babayev millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, BBMM-in Himayəçilik Şurasının sədri, akademik Kamal Abdullayevin təşəbbüsü ilə həyata keçirilən yay məktəbinin məramı ilə bağlı Quba gənclərinə məlumat verib.

Sonra Mərkəzdə "Azərbaycanda dini icmalar və din siyasəti" mövzusunda tədbir təşkil edilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılovun təqdimatında ölkəmizdəki dini durum haqqında ətraflı məlumat verilib, slayd nümayiş olunub. Bildirilib ki, Azərbaycanda tolerantlığın əsas səbəbi ölkəmizin qədim İpək Yolunun üzərində yerləşməsidir: "İpək Yolunun üzərində təkcə ticarət malları deyil, müxtəlif ideyalar, fərqli fəlsəfi cərəyanlar, dinlər də səyahət ediblər. Digər bir məqam ondan ibarətdir ki, Qərbdə sufizm kimi tanınan irfan mədəniyyəti Azərbaycanda güclü olub. Sufizmin məqsədi dinindən, dilindən, irqindən asılı olmayaraq, kamil insan yetişdirməkdir. Bir sözlə, Azərbaycanda tarixən hakim olmuş dini dünyagörüşü humanizm prinsiplərinə əsaslanır".

G.İsmayılov çıxışında yəhudi və Azərbaycan xalqlarının 26 əsrlik dostluq tarixindən söz açaraq Qubadakı Qırmızı Qəsəbədə yəhudilərin kompakt şəkildə yaşadıqlarını vurğulayıb. O, qonaqlara və yerli gənclərə Azərbaycandakı müxtəlif dinlərə aid abidələr haqqında məlumat verərək deyib: "Azərbaycan dövləti mütəmadi şəkildə müxtəlif dinlərə aid abidələri təmir edir. Ölkəmizdəki bütün dinlərin nümayəndələri öz bayramlarını sərbəst şəkildə, təntənə ilə keçirirlər. Azərbaycan dünyada yeganə ölkədir ki, burada xristianlar müsəlmanlar üçün iftar süfrəsi açırlar. Azərbaycanda dini müxtəliflik, vicdan azadlığı ilə bağlı beynəlxalq qanunvericilik, müddəalar tam təmin edilir. Azərbaycan dövləti tarixən formalaşmış tolerantlıq ənənələrini qoruyur, dünyəvi dövlət olduğuna baxmayaraq, dini icmalara və dindarlara qayğı ilə yanaşır, büdcədən onlara yardım ayrılır".



Sədr müavini Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi adından tələbələrə məşhur fotoqraf Reza Deqatinin Azərbaycanın tolerantlıq ənənələrini əks etdirən fotolarından ibarət albom hədiyyə edib.

Azərbaycan Dağ Yəhudiləri İcmasının sədri Milix Yevdayev də yay məktəbinin təşkilindən məmnunluğunu bildirərək mövzu ilə bağlı fikirlərini bölüşüb.

Tədbirdən sonra Qubanın gəncləribu rayonun müxtəlif məktəblərindən yüksək balla ali təhsil müəssisələrinə daxil olmuş tələbələr yay məktəbinin iştirakçılarını nahara dəvət ediblər. Nahardan sonra xarici tələbələr yerli gənclərlə birgə Quba Soyqırımı Memorialı Kompleksində olublar.

Ziyarətdən sonra Quba rayon Gənclər Mərkəzində İsrailin Hayfa Universitetinin doktorantı, beynəlxalq əlaqələr üzrə tanınmış ekspert Arye Qutun moderatorluğu ilə "Azərbaycanda törədilmiş soyqırımı cinayətləri, Qarabağ müharibəsi" mövzusunda "dəyirmi masa" keçirilib.

A.Qut slaydlar vasitəsilə etdiyi çıxışda 1918-ci ildə erməni terrorçularının Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Qubada törətdiyi qırğınlardan, dəhşətli soyqırımı cinayətlərindən söz açıb. O, həmçinin 1988-ci ildən bəri Ermənistanın Azərbaycana qarşı qaldırdığı ərazi iddialarından, torpaqlarımızın işğalından, bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün həyatı yaşadığından danışıb.

A.Qut bildirib ki, hazırda İsraildə yaşadığına baxmayaraq, Azərbaycan həqiqətlərini dünyaya çatdırmağı özünə borc bilir: "Holokost qırğınını yaşamış bir xalqın nümayəndəsi olaraq Azərbaycan xalqının başına gətirilən soyqırımı cinayətləri, ermənilərin törətdikləri Xocalı faciəsi ilə bağlı əsl həqiqətləri bütün dünyanın bilməsini istəyirəm".

Yay məktəbinin iştirakçıları M.Yevdayevin bələdçiliyi ilə Qırmızı Qəsəbəyə səfər edib, sinaqoqa baş çəkiblər. Bu dəfə xarici qonaqları çay süfrəsinə Qırmızı Qəsəbənin gəncləri dəvət edib və birgə müxtəlif mövzularda maraqlı müzakirələr aparıblar. Yay məktəbinin 5-ci günü "Milli mahnılar axşamı" ilə yekunlaşıb.



# Dini icmalara maliyyə yardımı ayrılır

***Prezident İlham Əliyevin 27 noyabr 2014-cü ildə imzaladığı Sərəncama uyğun olaraq dini icmalara maliyyə yardımının ayrılmasına başlanılıb.***

***Bu məqsədlə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) Dövlət Komitəsinin rəhbərliyi, şöbə müdirləri və dini icmaların sədrlərinin iştirakı ilə görüşlər keçirilib.***

Tədbirlərdə çıxış edən Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Prezident İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədi ilə dini icmalara maliyyə yardımı göstərmək üçün imzaladığı müvafiq Sərəncamın əhəmiyyətindən danışıb. Bildirib ki, maliyyə vəsaitinin icmalara verilməsi ilə bağlı Qiymətləndirmə Komissiyası icmalar tərəfindən təqdim edilən layihələri müzakirə etdikdən sonra həmin layihələrə uyğun olaraq icmalara vəsaitin ayrılması barədə qərar qəbul edib.

Ayrılan maliyyə yardımının müvafiq icmalar tərəfindən yerlərdə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işinin daha da gücləndirilməsinə, eləcə də dini radikalizmlə mübarizə istiqamətində sərf edilməli olduğunu vurğulayan Mübariz Qurbanlı icmalar tərəfindən layihələrin reallaşmasının radikalizmlə mübarizədə də öz müsbət təsirini göstərəcəyini bildirib. Ulu Öndər Heydər Əliyevin başlatdığı uğurlu dövlət-din siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirildiyini bildirən Mübariz Qurbanlı dövlətin siyasətində gənclərə diqqət və qayğının xüsusi yer aldığını xatırladaraq, icma sədrlərinə həyata keçirəcəkləri layihələrin əsas subyektinin gənclər olmasının vacibliyini tövsiyə edib. Komitə sədri icmalar tərəfindən layihələrin reallaşmasının radikalizmlə mübarizədə də öz müsbət təsirini göstərəcəyini bildirib.

Dini icma sədrləri isə çıxışlarında bu sahəyə göstərdiyi diqqət və qayğıya, həmçinin, dini icmalara ayrılan vəsaitə görə dövlət başçısı İlham Əliyevə təşəkkürlərini bildiriblər.

**Dövlət Komitəsi tərəfindən maliyyə yardımı ayrılan İslam və qeyri-islam dini icmaların siyahısı:**

**1.** Bakı şəhəri Qaradağ rayonu Müşfiqabad qəsəbə məscidi dini icması
**2.** Bakı şəhəri Qaradağ rayonu Qobustan qəsəbəsi "Şıxlar" məscidi dini icması
**3.** Bakı şəhəri Qaradağ rayonu Qobustan qəsəbəsi "Şamlı" məscidi dini icması
**4.** Bakı şəhəri Yasamal rayonu "Xanım Zəhra" məscidi dini icması
**5.** İsmayıllı şəhər "Cümə" məscidi dini icması
**6.** Lənkəran Rayonu Ləj kənd məscidi dini icması
**7.** Quba Rayonu II Nügədi kəndi "Molla Hud" məscidi dini icması
**8.** Zaqatala Rayonu Əliabad qəsəbəsi "Cümə" məscidi dini icması
**9.** Zaqatala rayonu Dardoqqaz kənd məscidi dini icması
**10.** Balakən Rayonu Qabaqçöl qəsəbə məscidi dini icması
**11.** Astara rayonu Pensər kəndi "Hacı Teymur" məscidi dini icması
**12.** Masallı rayonu Hişkədərə kənd məscidi dini icması
**13.** İsmayıllı rayonu Diyallı kənd məscidi dini icması
**14.** Biləsuvar şəhəri "Cümə" məscidi dini icması
**15.** Qax rayonu "Mərkəzi Cümə" məscidi dini icması
**16.** Lənkəran şəhəri Böyük Bazar "Cümə" məscidi dini icması
**17.** Şəki rayonu İncə kənd məscidi dini icması
**18.** Zaqatala rayonu Göyəm kənd "Cümə" məscidi dini icması
**19.** İmişli şəhər məscidi dini icması
**20.** Şabran rayonu Zeyvə kənd məscidi dini icması
**21.** Şabran rayonu Dağbilici kənd məscidi dini icması
**22.** Şəki şəhəri İmam Əli məscidi dini icması
**23.** Biləsuvar rayonu Bəydili kənd "Cümə" məscidi dini icması
**24.** Oğuz şəhəri "Cümə" məscidi
**25.** Masalli rayonu Aşurlu kənd məscidi dini icması
**26.** Cəlilabad şəhəri "Cümə" məscidi dini icması
**27.** Masallı rayon Ərkivan qəsəbəsi "Göllü" məscidi dini icması
**28.** Masallı rayon Hacıtəpə kənd məscidi dini icması
**29.** Masallı rayon Qızılavar kəndi "Peysə" məscidi dini icması
**30.** Astara rayon Şüvi kəndi "Cümə" məscidi dini icması
**31.** Astara rayon Şahağac kənd məscidi dini icması
**32.** Astara rayon Sığalomi kənd məscidi dini icması
**33.** Lənkəran rayon Nərimanabad qəsəbə "İmam Hüseyn" məscidi dini icması
**34.** Lənkəran rayonu Separadi kənd məscidi dini icması
**35.** Lənkəran rayonu Aşağı Nüvədi qəsəbə məscidi dini icması
**36.** Lənkəran rayonu Şəxakəran kənd məscidi dini icması
**37.** Lerik rayonu Monidigah kənd məscidi dini icması
**38.** Zaqatala rayonu Sumaylı kənd məscidi dini icması
**39.** Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası Pravoslav dini təşkilatı
**40.** Bakı şəhəri Dağ yəhudiləri dini icması
**41.** Quba rayonu, Qırmızı qəsəbə Dağ yəhudiləri dini icması
**42.** Avropa yəhudilərinin Bakı dini icması
**43.** Sumqayıt yəhudiləri dini icması
**44.** Gürcü yəhudilərinin Bakı dini icması
**45.** Azərbaycan Respublikasının Alban-Udi xristian dini icması
**46.** Oğuz şəhəri Alban-Udi xristian dini icması
**47.** Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası dini qurumu
**48.** Qax rayonu Qaxingiloy kəndi "Müqəddəs Georgi" kilsəsi gürcü pravoslav xristian dini icması
**49.** Qax rayonu Əlibəyli kəndi "Müqəddəs Nino" kilsəsi gürcü pravoslav xristian dini icması
**50.** Bakı şəhəri Molokan ruhani-xristian dini icması
**51.** Sumqayıt şəhəri Molokan ruhani-xristian dini icması
**52.** Qobustan rayonu Hilmilli kəndi Molokan ruhani-xristian dini icması
**53.** "Həyat Sözü" xristian dini icması
**54.** "Yeni Həyat" xristian İncil dini icması
**55.** Azərbaycan Yəhudiləri dini icması
**56.** Xilaskar Yevangelik Lüteranların Bakı dini icması
**57.** Bakı Krişna Şüuru dini icması



# "Azərbaycan multikulturalizmi" mövzusunda mühazirə keçirilib

Qusarda yerli gənclər və dini icma rəhbərləri üçün "Azərbaycan multikulturalizmi" mövzusunda mühazirə təşkil edilib. Mühazirəçi Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin analitika şöbəsinin müdiri, tarix elmləri üzrə fəlsəfə doktoru Nəriman Qasımzadə olub.

Rayondakı Gənclər evində keçirilən mühazirədə iştirakçıların diqqəti multikulturalizm anlayışının mahiyyətinə, bu sahədə Azərbaycan dövlətinin yürütdüyü siyasətə, həyata keçirdiyi tədbirlərə cəlb edilib. Multikulturalizm dəyərlərinin müasir Azərbaycan cəmiyyətində rolundan danışılıb, tarixi-siyasi, eləcə də milli-mədəni qaynaqları haqqında məlumat verilib. Azərbaycanın multikulturalizm modelinin nümunəvi potensialı və xüsusiyyətlərindən söz açılaraq dünyadakı mövcud modellərlə müqayisəli təhlillər aparılıb.

Qusar Rayon İcra Hakimiyyətinin və yerli media orqanlarının təmsilçilərinin iştirak etdikləri tədbirdə gənclərimizin tərbiyəsində belə mühazirələrin mühüm rol oynaya biləcəyi xüsusi vurğulanıb və dini fikirdə radikallığa qarşı maarifləndirici tədbirlərin əhəmiyyətindən danışılıb.

Mühazirə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin "Azərbaycan multikulturalizmi: səyyar dərslər" layihəsi çərçivəsində keçirilib.

# Tolerantlıq və çoxmədəniyyətlilik dini hüquqların təməl prinsipidir

***İyulun 10-da Qubada Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun "İlboyu bilik" layihəsi çərçivəsində növbəti tədbir keçirilib.***



Heydər Əliyev Mərkəzində rayon ziyalıları, təhsil işçiləri, məktəblilər və digər sahələrdə çalışan vətəndaşların iştirakı ilə keçirilən tədbirdə "Tolerantlıq və çoxmədəniyyətlilik dini hüquqların təməl prinsipidir" mövzusunda məruzə dinlənilib.

Bildirilib ki, müasir Azərbaycanda dini hüquqların təməl prinsiplərindən olan tolerantlıq və multikulturalizm Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının dəyərlər sisteminin tərkib hissəsidir.

Məruzədə qeyd olunub ki, bütün dünyada tolerantlıq dini dözümlülük və etnik bərabərlik mənasında işlədilir. Azərbaycanın timsalında dözümlülük və bərabərlik həm də dini konfessiyaların və etnik qrupların birgə mövcudluğu, əməkdaşlığı və bərabər imkanları üçün qarşılıqlı hörmət və münasibətlər sistemi olaraq qəbul edilir. Müasir Azərbaycan modeli həm dinlərin bərabər inkişaf imkanlarını və etnik qrupların birgə yaşamasını təmin edir, həm də digər inanc və mədəniyyətlərə mənsub olan müxtəlif qruplara hörmətin və təmsilçiliyin təqdim edilməsini özündə ehtiva edir.

Diqqətə çatdırılıb ki, çoxmillətli Azərbaycanın tolerant mühiti ölkədə multikulturalizm və dözümlülük dəyərlərinin fövqündə respublikamızı bütün dini və siyasi baxışlara sahib olan, müxtəlif mədəniyyətlərə mənsub xalqların vahid dialoq mərkəzinə çevirir. Azərbaycanın son on ildə tutduğu prinsipial mövqe, dövlətimizin başçısının qətiyyətli siyasəti, azərbaycançılıq ideologiyasının əmin-amanlıq, bərabər imkanlar, həmrəylik kimi dəyərlərə sadiq qalması respublikamızı sivilizasiyaların qarşılıqlı əməkdaşlığını təmin edən nadir bir dövlətə çevirib.

Məruzə dinlənildikdən sonra mövzu ətrafında fikir mübadiləsi aparılıb.

# Mübariz Qurbanlı: “Məscidsiz icmanın olması anormal vəziyyət idi”

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının Trend-ə müsahibəsi



**- QMİ-nin təqdimatı ilə Dövlət Komitəsi tərəfindən ölkənin xüsusən şimal-qərb bölgəsində bir sıra məscidlərlə bağlı problemlərin həll olunduğu, bir sıra dini icmanın qeydiyyatının isə ləğv edildiyi bildirilir. Əslində problem nə ilə bağlı idi və onların səbəbləri nə idi?**

- İcmaların ləğvi Komitə tərəfindən edilmir. Dini icma qanunvericiliyə zidd hər hansı hərəkət etsə, biz faktları toplayaraq həmin icmanın ləğvi barədə məsələ qaldıra bilərik. Amma bunun üçün məhkəmənin hökmü olmalıdır. Ümumiyyətlə, dini icmalar əsasən iki cür ləğv olunur. Ya icma özünü buraxır, ya da məhkəmə yolu ilə ləğv olunur. İcma bir də o zaman ləğv ola bilər ki, icma üzvləri faktiki fəaliyyət göstərə bilmirlər.

Həmin bölgədə bəzi icmalar var ki, onlara inzibati xarakterli xəbərdarlıqlar edilib. Onların da bəziləri özünü buraxılmış elan edib. Çünki bəzi icmalar da var idi ki, onların fəaliyyəti demək olar, dayanmışdı və bu məsələ də bu cür həll edildi. Bəziləri isə qanunla yenidən qeydiyyatdan keçməlidirlər, amma bunu etməyiblər. Buna görə onlara xəbərdarlıq edilib. Yəni bu, bir günün məsələsi deyildi. Bu proses bir müddət idi ki, davam edirdi. Şeyxülislam bu məsələni qeyd etmişdi və biz də bunun həlli ilə bağlı üzərimizə düşən vəzifəni yerinə yetirdik.

**- Ümumiyyətlə, Azərbaycanda nə qədər məscid var və onlardan nə qədərində dini icmalar fəaliyyət göstərir?**

- Hazırda ölkəmizdə 2050-dən çox məscid var. Lakin burada bir ciddi nüans var. Bəzi məscidlər var ki, fəaliyyət göstərir, lakin hüquqi baxımdan nə QMİ-yə, nə də Dövlət Komitəsinə bağlı deyil. Qaydalara görə, məscid fəaliyyət göstərirsə, orada imam və ya axund QMİ tərəfindən nümayəndə kimi təyin edilməlidir. Eyni zamanda, həmin məsciddə mütləq icma yaradılmalıdır. Azərbaycanda elə məscidlər də var ki, onlar tarixi abidə kimi Mədəniyyət və Turizm Nazirliyinin, digər qisim məscidlər isə bələdiyyələrin balansındadır. Bəzi məscidlər də var ki, müstəqilliyin ilk illərində tikilib və heç kimin balansında deyil. Hazırda ölkəmizdə dini icması olan 612 məscid var. Rəsmi fəaliyyət göstərən məscidlərin sayı isə 890-a yaxındır. Məscidlər də var ki, orada nə icma, nə də təyinat yoxdur. Lakin bu, nə QMİ-nin, nə də Dövlət Komitəsinin qəbahəti deyil. Sadəcə, bu, həlli zaman tələb edən bir məsələdir. Məscid elə bir yerdir ki, onun fəaliyyətinin dayandırılması məsələsini o zaman irəli sürmək olar ki, o, dövlətin qanunlarından kənara çıxsın. Lakin məscid ibadət yeridir, ora insanlar gəlir. Əgər ora insanlar gəlib ibadət edirsə, məscidə təzyiq etmək, onu bağlamağa çağırmaq düzgün deyil. Sadəcə işləri qanuniləşdirmək lazımdır.

Biz QMİ ilə birgə sistemli şəkildə məscidlərin həm icmasının olması, həm də orada dini ayinləri icra edən imam, axund təyinatı məsələlərini tədricən həll edirik. Yəni icmalar varsa, onlar məscidin nəzdində yaradılmalıdır. 2009-cu ildə “Dini etiqad azadlığı haqqında” yeni qanunun qəbuluna qədər belə olurdu. Amma məscidsiz icmanın olması anormal vəziyyət idi. İndi isə sistem təkmilləşib. İcma məscidə himayədarlıq edən bir qurum deməkdir. Ona görə də bəzi məsələlər var ki, onların üzərində işləyirik. Ölkədə bütün məscidlərdə imam, axund, qazı təyinatı məsələləri həll olunur, eyni zamanda, bütün məscidlərin yanında dini icmaların yaradılması istiqamətində işlər görülür. Fəaliyyət göstərən, amma dini icması olmayan məscidlərlə bağlı tədbirlər görürük.

Bu böyük bir prosesdir. Burada çoxlu kadrlara ehtiyac duyulur. Gərək həmin məscidlərdə təhsilli kadrlar təyin olunsun. Orada ən azı 50 nəfər toplaşmaqla icma yaratsın.

**- Elə icma varmı ki, onlar bir neçə məscidə himayədarlıq edir?**

- Elə kənd məscidləri var ki, orada əhali çox azdır və ya oradakı insanların əksəriyyəti məscidə getmir. O zaman başqa bir icma həmin məscidə də himayədarlıq edə bilər. Amma, əslində, hər məscidin öz icması olmalıdır.

**- Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanda dini icmalara maliyyə yardımı göstərmək üçün Prezidentin Ehtiyat Fondundan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə 2,5 milyon manat ayrılıb. Artıq bir müddətdir ki, müxtəlif layihələr çərçivəsində ölkədəki dini icmalara maliyyə yardımı edilir. Bu layihələrin istiqamətləri hansılardır və ayrılan vəsaitin xərclənməsinə nəzarət mexanizmi necədir?**

- Dövlət Komitəsində dini icmalara yardımın həyata keçirilməsi üzrə Qiymətləndirmə Komissiyası yaradılıb. Komissiyaya Komitə sədrinin 1-ci müavini rəhbərlik edir. Komitənin aparıcı şöbələrinin müdirləri ora daxildir. İcmalar layihəni ilk olaraq Komitənin rayon şöbələrinə təqdim edirlər. Rayon şöbəsi icmanın fəaliyyətini nəzərə alaraq təqdim olunan layihəyə baxır. Müzakirə edildikdən sonra layihə şöbənin təqdimatı ilə Qiymətləndirmə Komissiyasına təqdim olunur. Komissiya üzvləri layihəni bir daha müzakirə edərək ona vəsait ayrılmasının məqsədəuyğun olub-olmadığına dair rəy verirlər. Daha sonra sədr tərəfindən təsdiq olunan layihə üzrə icma ilə DQDİK arasında razılaşma sənədi imzalanır, öhdəliklər götürülür. Öhdəliklərdən biri də maliyyə hesabatının verilməsidir. Layihələr 3 aylığına verilir. Ona görə də icma hər ay görülmüş işlər barədə Komitəyə maliyyə hesabatı təqdim edir.

Layihələr və həyata keçirilən tədbirlər regionlar nəzərə alınaraq müxtəlif xarakterlidir. Onların icrasına nəzarət mexanizmi isə belədir ki, bizim şöbələrin nümayəndələri həmin layihələrdə iştirak edirlər. Bunun üçün bölgələrə ezam olunurlar. Eyni zamanda, yerli şöbələrin nümayəndələri tədbirlərə qatılırlar. Layihələr çərçivəsində gənclərlə görüşlər keçirilir, müxtəlif tədbirlər təşkil olunur, maarifləndirici çap məhsulları hazırlanır, insanlara kiçik hədiyyələr verilir. Təbii ki, burada başlıca hədəfimiz maarifləndirmədir. Maarifləndirmədə ekspertlər də iştirak edirlər.

Artıq onlarla icmaya yardım ayrılıb. Ramazan ayı ərzində həyata keçirilən layihələrdə iftar süfrələrinin açılması üçün müəyyən məbləğin ayrılmasını nəzərdə tutan bənd əlavə edilib. Bundan başqa, maarifləndirici iftar süfrələri açmaq üçün bir sıra icmalara vəsait vermişik və onlar da icra olunur. Bu layihələrin effekti olduqca böyükdür. Ora toplanan insanlar müzakirələr aparır, eyni zamanda, onların diqqətinə müxtəlif məsələlər, əsas da ənənəvi islami dəyərlərimiz və dövlət maraqlarımız çatdırılır. Cənab Prezidentin imzaladığı sərəncamda nəzərdə tutulan məsələlər də həmin layihələrdə tam əksini tapıb.

Həmin vəsaitin bir qismi - 400 min manat isə qeyri-islami dini icmalara – pravoslav, katolik, yəhudi dini icmalarına ayrılıb. O vəsaitlər də icmalara layihələr əsasında təqdim olunub.

**- Sizin Türkiyə səfərindən sonra DQİDK-nın nəzdində insanların dini sahədə suallarının cavablandırılması üçün “Sorğu mərkəzi” formasında bir mərkəz yaratmaq planlarınız vardı. Bununla bağlı işlər hansı mərhələdədir?**

- Hazırda Komitədə “qaynar xətt”imiz fəaliyyət göstərir və istənilən vətəndaş ora müraciət edə bilər. Amma Türkiyədə gördüklərimiz tamam başqa bir təsisat idi. Oraya müraciət edənlər dini bilgilər, müəyyən məsləhət və tövsiyələr ala bilirlər. Biz Azərbaycanda da bu təsisatın yaradılmasını istəyirik. Vətəndaş internetdə, televiziyada, kitablarda da maraqlandığı dini mövzu ilə bağlı məlumat əldə edə bilər. Lakin onu ani olaraq hansısa məsələ maraqlandıranda və ya oxuduğu kitabda nəyisə anlamayanda, o zaman həmin mərkəzə müraciət edə və hər şeyi özü üçün aydınlaşdıra bilər. Lakin bu, bir az xərc tələb edən bir məsələdir. Eyni zamanda, bunun üçün ayrıca bina, texnika, ən əsası, mütəxəssislər olmalıdır. Yəni bu, çox gözəl ideyadır, amma onun reallaşması üçün mütləq maddi dəstək, təminat da olmalıdır. Əlbəttə ki, bizim ölkəmizin imkanları genişdir. Sadəcə zamana uyğun olaraq, bunun üçün müəyyən məsələləri həll edilməlidir.

**- Son dövrlər müzakirə edilən məsələlərdən biri də qəbiristanlıqla bağlı problemlərin aradan qaldırılması üçün real həyata keçirilə bilən qanunvericilik bazasının yaradılmasıdır. Bununla bağlı normativ hüquqi aktın Milli Məclisdə nə zaman müzakirəyə çıxarılmasını gözləmək olar?**

- Ölkədə qəbiristanlıqlar və dəfn mərasimləri ilə bağlı sahənin hüquqi tənzimlənməsində müəyyən problemlər və ziddiyyətlər mövcuddur. Ölkə əhalisinin ictimai rəyinin öyrənilməsi üzrə aparılmış araşdırmalar və müşahidələr, eyni zamanda, Dövlət Komitəsinə daxil olmuş çoxsaylı müraciətlər bir daha göstərir ki, bu sahənin tənzimlənməsi üçün normativ hüquqi aktın qəbul olunması artıq zamanın tələbinə çevrilib. Bununla bağlı normativ hüquqi akt üzərində iş yekunlaşmaq üzrədir. Dövlət Komitəsi İqtisadiyyat və Sənaye Nazirliyi ilə birgə “Qəbiristanlıqların yaradılması, onların idarə olunması və dəfn və məzarların qeydiyyatı haqqında” normativ hüquqi akt hazırlayıb. Layihə Nazirlər Kabinetinə təqdim olunub. Orada müəyyən düzəliş və təkliflər irəli sürülüb, daha sonra Prezident Administrasiyasının müvafiq şöbəsində hüquqi ekspertizadan keçib.

Normativ hüquqi aktda məzarlıqlar, dəfn mərasimləri, qəbiristanlıqların yerləşməsi, qəbirlərin ölçüsü, müvafiq dinlərə uyğun qəbirlərin hazırlanması və digər məsələlər yer alıb. Mən çox istərdim ki, bu sənəd qəbul olunsun. Bizdə məzarlıqlarda dinimizə, mentalitetimizə uyğun vahid bir sistem yaradılmalıdır. İndi sadəcə ekspertlər toplaşaraq bir daha layihəyə baxmalıdır. Daha sonra sənəd parlamentə təqdim olunacaq. Böyük ehtimalla bu sənəd bu ilin payızında Milli Məclisin müzakirəsinə çıxarılacaq.

## Komitə sədri Yardımlıda vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyəsinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həll olunması üçün müvafiq tədbirlər görürlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı iyulun 28-də Yardımlı şəhərində Cəlilabad, Yardımlı və Masallı rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl DQİDK sədri Mübariz Qurbanlı və Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad edib, Heydər Əliyev Mərkəzində Ulu Öndərin zəngin və mənalı ömür yolunu əks etdirən eksponatlar və fotoşəkillərlə tanış olublar.

İyirmidən artıq vətəndaşın iştirak etdiyi qəbul zamanı müraciətlər əsasən dini icmaların qeydiyyatı,dini icmalara maliyyə yardımının ayrılması, dini maarifləndirmə işinin təşkili, yas mərasimlərinin keçirilməsi qaydaları, məscidlərin təmiri və digər məsələlərlə bağlı olub.

Komitə sədri Mübariz Qurbanlı hər bir müraciətin diqqətlə araşdırılması və qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli barədə müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb. Komitənin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb və nəzarətə götürülüb.

# Azərbaycanda ilk dəfə Brayl əlifbası ilə çap edilmiş Qurani-Kərimin təqdimatı keçirilib

***İyulun 16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) maliyyə dəstəyi ilə Azərbaycanda ilk dəfə Brayl əlifbası (ciddi görmə problemli insanların oxuyub-yazması üçün tərtib edilən əlifba) ilə çap edilmiş Qurani-Kərimin təqdimatı keçirilib.***



Mərasimdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İlqar Rəhimov, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev, millət vəkilləri Siyavuş Novruzov və Fazil Mustafa, BDU-nun ilahiyyat fakültəsinin dekanı, akademik Vasim Məmmədəliyev, Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin sədri Səmyar Abdullayev, Türkiyə səfirliyinin din xidmətləri müşaviri Kamil Günəş, İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin Mədəniyyət Mərkəzinin sədri İbrahim İbrahimi, DQİDK-nın sədr müavinləri və şöbə müdirləri, QHT rəhbərləri, din xadimləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək, bu gün ölkəmizdə İslam dininə dövlət tərəfindən yüksək səviyyədə diqqət və qayğı göstərildiyini bildirib. Komitə sədri Azərbaycanda ilk dəfə Brayl əlifbası ilə çap edilmiş Qurani-Kərimin Prezident İlham Əliyevin göstərişinə əsasən dini kitabların çapı üçün ayrılmış vəsait hesabına nəşr edildiyini deyib. Görmə qabiliyyəti məhdud və ya itirilmiş insanlar üçün Brayl əlifbası ilə hazırlanan Qurani-Kərimin 7 cilddə çap edildiyini söyləyən Komitə sədri bu təşəbbüsün vətəndaşların mənəvi zənginliyinin təmin edilməsi baxımından çox gərəkli olduğunu vurğulayıb. Qurani-Kərimin görmə qüsurlular üçün çap edilməsi sosial layihədir və bu layihələr davamlı olaraq həyata keçiriləcək.

Akademik Vasim Məmmədəliyev çıxış edərək, Brayl əlifbası ilə çap edilən Qurani-Kərimin məhz müqəddəs Ramazan bayramı ərəfəsində təqdim edilməsini, ümumilikdə bu kitabın işıq üzü görməsini son dövrün ən böyük və uğurlu hadisələrindən hesab etdiyini bildirib.

Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov qeyd edib ki, gözdən əlillərə, əlil insanlara, ahıllara diqqət və qayğı Prezident İlham Əliyevin siyasətinin əsas istiqamətidir. Millət vəkili bildirib ki, Brayl əlifbası ilə çap edilən Qurani-Kərim dinimizin təbliği baxımından da çox mühüm addımdır.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İlqar Rəhimov mənəvi dəyərlərlə zəngin olan Qurani-Kərimin Ramazan bayramı ərəfəsində təqdim edilməsinin rəmzi məna daşıdığını vurğulayaraq deyib ki, gözdən əlil vətəndaşlar üçün bu kitabın çap edilməsi çox böyük sosial layihədir. Gözdən əlil insanlar, o cümlədən əlil idmançılarımız dövlətin birbaşa nəzarətindədir və onlar bütünlüklə qayğı ilə əhatələniblər. Azərbaycanda ilk dəfə Brayl əlifbası ilə Qurani-Kərimin çap edilməsi də bu qayğının ən bariz nümunəsidir.

Daha sonra Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev, millət vəkilli Fazil Mustafa, Türkiyə səfirliyinin din xidmətləri müşaviri Kamil Günəş, İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin Mədəniyyət Mərkəzinin sədri İbrahim İbrahimi, Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin sədri Səmyar Abdullayev çıxış edərək gözdən əlil vətəndaşlarımız üçün Qurani-Kərimin çap edilməsini milli-mənəvi dəyərlərimizin, ümumilikdə dinimizin təbliği baxımından çox mühüm addım olduğunu deyiblər. Çıxış edənlər bu gün Azərbaycanda İslam dininə və digər dinlərə dövlət tərəfindən göstərilən diqqət və qayğıya görə ölkə başçısı İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# "Milli-mənəvi dəyərlər və müasirlik" mövzusunda yazı müsabiqəsinin qalibləri mükafatlandırıldı




Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Mətbuat Şurası ilə birgə "Milli-mənəvi dəyərlər və müasirlik" mövzusunda kütləvi informasiya vasitələrinin təmsilçiləri arasında elan etdiyi yazı müsabiqəsinin qalibləri mükafatlandırılıb. Bu məqsədlə təşkil olunan mərasimdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Mətbuat Şurasının sədri Əflatun Amaşov, "Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Bəxtiyar Sadıqov, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, "Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli, BDU-nun professoru, İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının sədri, əməkdar jurnalist Cahangir Məmmədli, DQİDK-nın sədr müavinləri və şöbə müdirləri, həmçinin, KİV nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Mətbuat Şurasının sədri Əflatun Amaşov mətbuatda mili-mənəvi dəyərlərin qorunması mövzusuna geniş yer ayrılmasının vacibliyindən danışıb. Mayın 1-dən iyunun 1-dək keçirilmiş müsabiqədə jurnalistlərin fəal iştirak etdiyini bildirən Mətbuat Şurasının sədri bu müddət ərzində müsabiqəyə 45 müəllif tərəfindən yazı təqdim edildiyini vurğulayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycan mətbuatının yaranmasının 140 illiyi münasibətilə jurnalistləri təbrik edərək, mətbuatın cəmiyyətin həyatındakı rolunu dövlətçilik maraqlarının, milli-mənəvi dəyərlərin qorunması baxımından yüksək dəyərləndirib. Avropa Oyunları zamanı xarici təsirlərə qarşı mübarizədə Azərbaycan mətbuatının böyük iş gördüyünü deyən Komitə sədri işğalçı Ermənistana, eləcə də Azərbaycana qarşı olan digər xarici dairələrlə mətbuatımızın ideoloji müstəvidə böyük işlər apardığını bildirib. Dövlət Komitəsinin sədri jurnalistlər arasında "Milli-mənəvi dəyərlər və müasirlik" mövzusunda keçirilən müsabiqədə KİV nümayəndələrinin böyük həvəslə iştirak etdiyini deyib. Milli-mənəvi, dini dəyərlərimizin təbliğində KİV nümayəndələrinin əməyini yüksək qiymətləndirən Mübariz Qurbanlı bu cür müsabiqələrin mütəmadi keçiriləcəyini vurğulayıb.




"Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Bəxtiyar Sadıqov, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, "Xalq Cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli, əməkdar jurnalist Cahangir Məmmədli çıxış edərək müsabiqənin keçirilməsinin, milli-mənəvi dəyərlərin ölkə mətbuatında təbliğinin vacibliyindən danışıblar.

Daha sonra "Milli-mənəvi dəyərlər və müasirlik" mövzusunda keçirilən müsabiqənin qalibləri elan edilib və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən qaliblərə - I yer "Azərbaycan" qəzeti – Rəşad Cəfərli 1000 manat, II yer "525-ci qəzet" – İsgəndər Həsənov və "Kaspiy" qəzeti – Şəfayət Salah 700 manat, III yer "İki sahil" qəzeti – Orxan İsrafilov, "Yeni Azərbaycan" qəzeti – Nurlan Qələndərov, qaziler.az saytı – Rəsmiyyə Qarayeva 500 manat, 10 nəfərin hər birinə isə 100 manat məbləğində həvəsləndirici mükafatlar ilə yanaşı, müqəddəs Qurani-Kərim və Ulu Öndər Heydər Əliyevin mili-mənəvi dəyərlərlə bağlı çıxışlarının yer aldığı "Heydər Əliyev siyasəti. Tolerantlıq" kitabı hədiyyə edilib.

## Dövlət Komitəsində görüşlər
(QISA XRONİKA)

*İyulun 9-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Gürcüstanın Azərbaycandakı səfiri Teymuraz Şaraşenidzeni qəbul edib. Görüşdə iki ölkə arasında din sahəsində mövcud əlaqələrin daha da möhkəmlənməsi və dərinləşməsinin vacibliyi vurğulanıb, müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparılıb.*

* * *

İyulun 15-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Fələstin Muxtariyyətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Nəssir Əbdül Kərim Əbdül Rəhimi qəbul edib.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı səfiri qarşıdan gələn Ramazan bayramı münasibəti ilə təbrik edərək, iki müsəlman ölkəsi arasında münasibətlərin yüksək səviyyədə olduğunu bildirib.

Eyni zamanda, görüşdə ölkələrimiz arasında mövcud əlaqələrin daha da möhkəmlənməsinin vacibliyi vurğulanıb, müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

*İyulun 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) Amerika Yəhudi Komitəsinin nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Gennadi Zelmanoviç, "Həyat Sözü" protestant dini icmasının başçısı Rasim Xəlilov, Azərbaycandakı katolik icmasının rəhbəri Vladimir Fekete və digər qeyri-islam dini icmaların nümayəndələri iştirak ediblər.*

*Yəhudilərin Azərbaycanda məskunlaşmasının 2600 illik tarixi olduğunu deyən Səyyad Salahlı bildirib ki, ölkəmizdə hər zaman yəhudilərə doğma münasibət bəslənilib. Azərbaycan hökuməti bütün dini konfessiyalara bərabər şərait yaradır və digər konfessiyalar kimi, yəhudi dini icmasının nümayəndələrinin də ölkəmizdə öz ibadətlərini, dini ayinlərini sərbəst şəkildə yerinə yetirirlər.*

*Azərbaycandakı tolerant və multikultural mühitdən danışan Rasim Xəlilov katolik və pravoslav kilsələrinin, eləcə də digər konfessiyaların həm dövlət qurumları, həm də bir-biri ilə yüksək səviyyədə əlaqələr qurduqlarını deyib. Adena Filips dünyada antisemitizmlə bağlı problemlərin mövcud olduğu bir dönəmdə Azərbaycanda yəhudilərin sülh və dostluq şəraitində yaşamasının çox sevindirici hal olduğunu bildirib.*

*Görüşün sonunda qonaqlara Azərbaycanın tolerantlıq mühitindən bəhs edən fotoların yer aldığı kitab hədiyyə edilib.*

* * *

İyulun 29-da Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Gürcüstan Provaslav Kilsəsinin mitropoliti, Gürcüstan Patriarxlığının Beynəlxalq əlaqələr şöbəsinin müdiri Gerasim Şaraşenidzenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycanla Gürcüstan arasında əməkdaşlıq və mehriban qonşuluq əlaqələrinin uğurla inkişaf etdiyi vurğulanıb. Eyni zamanda digər sahələrdə olduğu kimi, din sahəsində əlaqələrin daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Gürcüstanın Xornabuci və Hereti yeparxiyasının yeni təyin olunmuş yepiskopu Dmitri Kapanadze və Gürcüstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Teymuraz Şaraşenidze iştirak edib.

# Mübariz Qurbanlı: Milli dini kadrların hazırlanması sahəsində əsaslı dəyişiklik etməliyik

"Azərbaycanda artıq milli dini kadrların hazırlanması istiqamətində əsaslı dəyişiklik etməliyik. Xaricə axının qarşısını almaq üçün ölkəmizdə dini təhsil mütləq pulsuz olmalı və dövlət bu sahəni himayəyə götürməlidir". Bunu Trend-ə müsahibəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri, Yeni Azərbaycan Partiyasının (YAP) icra katibinin müavini Mübariz Qurbanlı deyib.

Komitə sədrinin sözlərinə görə, dini təhsil məsələsi qısa zaman ərzində həll olunan məsələ deyil və burada iki nüans nəzərə alınmalıdır: "Birincisi, orta məktəblərdə dini biliklərin tədris olunması məsələsidir. Azərbaycanda orta məktəblərdə hazırda "Həyat bilgisi" adlı fənn tədris olunur. Həmin fənn çərçivəsində dinlər haqqında müəyyən məlumat verilir. Bizim Təhsil Nazirliyinin mütəxəssisləri ilə söhbətlərimiz zamanı belə bir ümumi nəticə hasil olub ki, "Həyat bilgisi" dərsliyində bu proqram bir az da genişləndirilsin və daha geniş bilgi verilsin. Başqa bir ideya da var. Ola bilsin ki, orta məktəblərdə, xüsusilə yuxarı sinif şagirdləri üçün məsələn, "Dünya dinləri" fənni tədris olunsun. Bu ad şərtidir və fənnin adı "Dünya dinləri və mədəniyyət", "Din və mədəniyyət", "Din və cəmiyyət" və s. də ola bilər. Fənn 6 ay və ya 1 il ərzində fənn və ya kurs kimi tədris oluna bilər. Burada söhbət yalnız İslamın tədrisindən getmir. İstəyirik ki, yuxarı sinif şagirdləri İslam, Xristianlıq, İudaizm, Bütpərəstlik və s. haqqında, o cümlədən hər bir dindəki radikal qruplar, cərəyanlar, onları yaradan səbəblər, nəticələri və fəsadları barədə ətraflı bilgi əldə etsinlər. Bunlar din haqqında olmaqla yanaşı, həm də dünyəvi və şagirdlərə həyatları boyu lazım ola biləcək bilgilərdir".

M.Qurbanlı qeyd edib ki, əslində bu yeni mövzu deyil və əvvəllər də müzakirə olunub: "Müstəqilliyimizin ilk illərində bu mövzuda söhbətlər, müzakirələr aparılıb. Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti illərində də, ondan sonra da bununla bağlı söhbətlər olub. Amma bu, Dövlət Komitəsinin səlahiyyətləri çərçivəsində həll olunası məsələ deyil. Bunu mütəxəssislər həll etməlidir. Təhsil Nazirliyində də bununla bağlı fikir mübadilələri aparılır".

DQİDK sədrinin fikrincə, ikinci əsas məsələ ümumi dini təhsil və dini kadrların hazırlanmasıdır: "Bu, çox ciddi bir məsələdir. Azərbaycandan kənarda, xarici ölkələrdə dini təhsil almış və hazırda da alan vətəndaşlarımız, gənclərimiz var. Amma qanunla onlar Azərbaycana qayıtdıqda məscidlərdə, dinlə bağlı yerlərdə çalışa, dini ayin və mərasimlərin icrasına rəhbərlik edə bilməzlər. Çünki din yalnız mənəviyyat deyil, eyni zamanda insanları bir araya gətirən ideoloji sahədir. Ona görə də hər ölkə özünü qoruyur və başqa ölkələrdə dini təhsil almış din xadimlərinin, eyni zamanda, əcnəbilərin gəlib məscidlərdə və digər yerlərdə ayinlər icra etməsinə imkan vermir. Azərbaycan da buna imkan vermir və bu doğru yoldur. Azərbaycanda dini ayinləri yalnız ölkə daxilində dini təhsil almış şəxslər apara bilər. Ona görə də dini təhsil, din üzrə kadrların hazırlığı məsələsində müəyyən ciddi addımların atılmasına ehtiyac var. Biz ilk növbədə milli dini kadrların hazırlanması sahəsində əsaslı dəyişiklik etməliyik".

M.Qurbanlı qeyd edib ki, Azərbaycanda Bakı Dövlət Universitetinin (BDU) ilahiyyat fakültəsi, Bakı İslam Universiteti və mədrəsələr var. Son illərdə Bakı İslam Universiteti Azərbaycanda din üzrə kadr hazırlığında xeyli irəliləyişə nail olub və hazırda çalışan din xadimlərinin əksəriyyəti də bu universitetin məzunlarıdır. Burada hazırlanan kadrlara heç kimin şübhəsi və iradı yoxdur. BDU-nun ilahiyyat fakültəsi də xüsusilə dinşünaslıq üzrə səviyyəli mütəxəssislərin hazırlanmasında xeyli uğurlar əldə edib. DQİDK-da çalışan kadrların böyük əksəriyyəti, eləcə də Milli Elmlər Akademiyasında, o cümlədən ayrı-ayrı təhsil ocaqlarında dinşünaslıq üzrə fəaliyyət göstərən şəxslər də məhz bu fakültənin yetirmələridir.

DQİDK sədri hesab edir ki, burada ciddi bir nüans var. Bu da ondan ibarətdir ki, Bakı İslam Universitetində təhsil ödənişlidir: "Bu isə müəyyən problemlər yaradır. Azərbaycandan İranda, Türkiyədə, ərəb ölkələrində və digər yerlərdə təhsil alanlar var. Məsələ ondadır ki, ətrafımızdakı ölkələrdə dini təhsil pulsuzdur. Ona görə də pulsuz dini təhsil almaq üçün ölkədən kənara axın var. Biz bu axının qarşısını almaq üçün mütləq ölkəmizdə din üzrə kadr hazırlığını pulsuz etməliyik və dövlət bunu himayəyə götürməlidir. Azərbaycanda din dövlətdən ayrıdır. Ona görə də dini təhsilin dövlət tərəfindən himayəyə götürülməsi dedikdə, söhbət dövlət büdcəsindən vəsait ayrılmasından getmir. Bu məsələni büdcədən olmasa da, müxtəlif qrantlar ayırmaqla və ya fond yaradıb onun vasitəsilə həll edə bilərik. Amma mütləq bu sahədə təhsilin pulsuz olmasına nail olmalıyıq və din üzrə hazırlanan kadrlarımız pulsuz təhsil almaq imkanı əldə etməlidirlər. Bu şəxslər mütləq milli kadrlar olmalıdır. Bu, gələcəyə yönəlik proqram olmalıdır. Bu yolla ideoloji olaraq bizə yad, radikal məzhəb və ya təriqətlərin ölkəmizə müdaxilə etməsinin qarşısını almış olarıq".

Dövlət Komitəsinin sədri artıq yeni sistemin yaradılması ilə bağlı müəyyən təkliflərin hazırlandığını və müzakirələrdən sonra vahid mövqe şəklində hökumətə təqdim olunacağını açıqlayıb: "Bu məsələ ilə bağlı artıq Qafqaz Müsəlmanları İdarəsi (QMİ), QMİ-nin tərkibindəki Ali Dini Şuranın üzvləri və Bakı İslam Universiteti ilə birgə fikir mübadiləsi aparmışıq. Bu məsələdə ortaq məxrəcə gəlmək üçün mütəxəssislərin fikirlərinə ehtiyac var. Biz hazır fikri, qərarı öz aramızda razılaşdıraraq artıq onu hökumətə təqdim etməli, bu yöndə müəyyən addımlar atmalıyıq. Bu, mütləq lazımdır. Çünki din üzrə məsələlər bir günün işi deyil. Biz gələcəyi fikirləşməliyik. Heç bir ölkə özünün milli-dini modelini yarada bilməz. Dinin milli modeli olmur. Din vahiddir, lakin hər bir ölkə dinlə bağlı kadrlarını özü hazırlamalı və dini idarəçiliklə bağlı məsələlərdə özünəməxsusluğu nəzərə almalıdır".

# Yeni qeydiyyatdan keçmiş 17 dini icmaya şəhadətnamələr təqdim olunub

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) yeni qeydiyyatdan keçmiş 17 dini icmaya şəhadətnamələr təqdim edilib. Bu məqsədlə təşkil edilmiş toplantıda Dövlət Komitəsinin rəhbərliyi, şöbə müdirləri və yeni qeydiyyatdan keçmiş dini icmaların sədrləri iştirak ediblər.***



Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanda dövlət-din münasibətlərindən danışaraq bildirib ki, ölkəmizdə dövlətin dinə, o cümlədən müxtəlif dini icmalara diqqət və qayğısı ardıcıl həyata keçirilir. Prezident İlham Əliyevin apardığı siyasətin nəticəsində dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində hazırda çox mühüm uğurlar əldə edilib. Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi, dövlət-din münasibətlərində də müstəqilliyimizə, milli-mental dəyərlərimizə, dinimizə uyğun qaydaların təsbit olunduğunu vurğulayan Komitə sədri dini icmaların Azərbaycan cəmiyyətində özünəməxsus yerinin və rolunun olduğunu bildirib.

Yeni qeydiyyatdan keçmiş dini icmaların sədrlərinə müvafiq tövsiyələrini verən Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı icmaları daha aktiv olmağa, yerlərdə axund və imamlarla, eləcə də QMİ-nin nümayəndələri ilə qarşılıqlı əməkdaşlıq şəraitində fəaliyyət göstərməyə çağırıb. Komitə sədri dini icma sədrlərini məzhəblərarası qarşıdurmaya sövq edən hərəkətlərin qarşısını almağı, rəhbərlik etdikləri icmaların milli-mənəvi dəyərlərimizin təbliği və radikalizmə qarşı ideoloji mübarizə istiqamətində fəaliyyət göstərmələrini, ümummilli maraqlardan çıxış etmələrini tövsiyə edib.

Dini icma sədrləri çıxış edərək dini sahəyə göstərilən diqqət və qayğıya görə təşəkkür edib, rəhbərlik etdikləri icmalarda dini sabitliyi qoruyub saxlamaq üçün əllərindən gələni edəcəklərini, milli-mənəvi dəyərlərin təbliği istiqamətində iş aparacaqlarını bildiriblər.

# Səyavuş Heydərov: Multikultural təhlükəsizlik milli təhlükəsizliyin qarantı rolunu oynamaqdadır



*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərovun Trend-ə müsahibəsi*

**- Vətəndaş cəmiyyətində din amilinin oynadığı rol və onun birgəyaşayış prinsiplərinə təsiri barədə nə deyə bilərsiniz?**

- Bu gün dünyada dövlət-din münasibətləri, birgəyaşayış mühitinin təmin edilməsi, habelə dini radikalizm və ekstremizmlə birgə mübarizə böyük əhəmiyyətə malikdir. Ötən əsrin sonlarından etibarən dünyanın bir sıra ölkələrində din anlayışının vətəndaş cəmiyyətinə daxil olma prosesi başlamışdır ki, bu da özlüyündə qanunvericiliyin nəzəri əsasları üzərində sekulyarizm və din arasında əlaqələrlə bağlı müasir problemlərə gətirib çıxarmışdır. Yer üzündə mövcud olan üç əsas səmavi din – İslam, Xristianlıq və Yəhudilik dünya haqqında təsəvvür yaratmaqla yanaşı, ictimai idarəetmə prinsiplərini də tənzimləməklə, dinin bu proseslərdə həlledici rola malik olduğunu sübut etməkdədir.

**- Sizcə, müasir dünyada birgəyaşayış prinsiplərinin tənzimlənməsində hansı neqativ hallar müşahidə edilir və bu prosesin sağlam müstəvidə qurulmasına hansı amillər mənfi təsir göstərir?**

- Dünyəvi dövlət quruculuğuna malik bir sıra cəmiyyətlər müxtəlif dinlərə qarşı daha sərt, digər qisim cəmiyyətlər isə daha yumşaq mövqedən yanaşır. Bu da özlüyündə müxtəlif mənəvi-sosial problemlərə, bir sıra regionlarda hətta silahlı münaqişələrə belə zəmin yaratmaqdadır. Belə ki, bu gün bəşəriyyət özünün təzadlı və məsuliyyətli dövrünü yaşayır. Bir tərəfdən, mədəniyyətlərarası dialoqun, xalqların və dövlətlərin əməkdaşlığının qurulması istiqamətində birgə fəaliyyət göstərilsə də, digər tərəfdən, dünyanın bir sıra nöqtələrində ksenofobiya, neonasizm, irqi və dini ayrı-seçkilik kimi təhdidlər getdikcə daha təhlükəli formada təzahür etməkdədir. Bütün bunlar "sivilizasiyalararası dialoq", "beynəlxalq sülh və təhlükəsizlik naminə əməkdaşlıq" kimi vacib, ümumbəşəri əhəmiyyət daşıyan pozitiv trendləri formal, deklarativ bəyanatlar səviyyəsinə endirərək, bəşəriyyəti yeni və daha təhlükəli qarşıdurmalara sürükləməkdədir. Nəticədə "mədəniyyətlərarası dialoq" prosesi mahiyyətini dəyişərək geosiyasi və geoiqtisadi maraqların ödənilməsi vasitəsinə, dünyanın güc mərkəzlərinin, xüsusilə də bəzi Qərb ölkələrinin ikili standartlarının monoloquna çevrilməkdədir.

**- Ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi və dini radikalizmə qarşı mübarizə çərçivəsində hansı əməli tədbirlər görülür?**

- Azərbaycan dünyəvi dövlətdir və ölkəmizdə dövlət-din münasibətləri mövcud qanunvericiliyə uyğun şəkildə tənzimlənir. Respublikamızda mövcud olan bütün dinlərin nümayəndələrinə qarşı dözümlülük və tolerantlıq nümayiş olunur. Azərbaycan bu aspektdən dünyanın bir çox dövlət və cəmiyyətlərinə nümunə ola biləcək ölkədir. Xalqımızın öz tarixi köklərinə bağlılığı, milli-mənəvi dəyərlərinə sadiq olması Azərbaycan Respublikasının mövcud xətt üzrə dövlət siyasəti ilə vəhdət təşkil etməkdədir. Cəmiyyətimizdə həm dini, həm də bəşəri dəyərlərə eyni ölçüdə önəm verilir. Azərbaycan radikal qüvvələrə qarşı mübarizədə bir sıra vasitələrdən istifadə etmiş, ölkəmizdə bu sahədə praktiki yöndən işlər mühüm nəticələr vermişdir. Dini maarifləndirmə işinin düzgün və səmərəli təşkili, cəmiyyətimizin müxtəlif din və millətlərin mənsublarının birgəyaşayış tərzinə olan münasibəti bu nəticələrin qazanılmasında həlledici rol oynamışdır. Dövlətimiz zəruri hallarda hüquqi aspektdən tələb olunan inzibati tədbirlər də həyata keçirməklə, bu nəticələrin effektivliyini daha da artırmışdır.

**- Multikultural təhlükəsizlik özündə hansı anlayışları ehtiva edir və onun Azərbaycandakı təzahürləri ilə bağlı nə deyə bilərsiniz?**

- Beynəlxalq müstəvidə dini və etnik zəmində baş verən proseslər bir daha sübut edir ki, multikultural təhlükəsizlik, ictimai-siyasi, eləcə də ümumbəşəri təhlükəsizliyin ayrılmaz tərkib hissəsi olan anlayışdır.

Bu gün Azərbaycanın dövlət siyasətinə çevrilən multikulturalizm anlayışı təkcə ayrı-ayrı ölkələrdə deyil, bütövlükdə dünyada mədəni müxtəlifliyin qorunmasına və bu vasitə ilə ümumbəşəri harmoniya yaradılmasına, xalqların, fərqli din və mədəniyyətlərin qarşılıqlı faydalı əməkdaşlığına yönəldilmiş nəzəriyyədir. Bu gün planetin ayrı-ayrı guşələrində - xüsusilə, İslam dünyasında cərəyan edən hadisələr bir daha bu nəzəriyyənin doğruluğunu və Yer üzündə sülhün, təhlükəsizliyin təmin olunmasında, etnik-dini, mədəni rəngarəngliyin mühafizəsində vacibliyini, praktiki əhəmiyyətini təsdiqləməkdədir. Möhtərəm Prezident cənab İlham Əliyevin qeyd etdiyi kimi, dünyada multikulturalizmin alternativi yoxdur. Bu baxımdan, multikulturalizmin digər populyar mövqedən – siyasi liberalizmdən əsas fərqi onun həmin fərqli qrupların hüquqlarını tanıması, milli-mədəni identikliyin qorunmasına, dini, milli icmaların birgəyaşayış normalarının formalaşmasına və inkişafına yönəldilən qanuni fəaliyyəti hərtərəfli və effektiv dəstəkləməsidir. Məhz buna görə də multikultural təhlükəsizlik milli təhlükəsizliyin bir növ qarantı rolunu oynamaqdadır. Çünki multikultural təhlükəsizliyi təmin edən əsas meyar vahid dövlətdə yaşayan müxtəlif milli-dini və sosial qrupların yaratdığı birgəyaşayış prinsiplərinin qorunub saxlanması və inkişaf etdirilməsidir.

**- Bu yaxınlarda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Qafqaz Müsəlmanları İdarəsinin təşkil etdiyi iftar süfrəsində iştirakı zamanı dünyada dini zəmində baş verən proseslərə və ölkəmizdəki multikultural dəyərlərə diqqət çəkdi. Sizcə, qeyd etdiyiniz birgəyaşayış prinsiplərinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün dünya ölkələri tərəfindən konkret hansı addımlar atılmalıdır və Azərbaycan bu sahədə dünya ictimaiyyətinə hansı töhfələr verə bilər?**

- Möhtərəm Prezident cənab İlham Əliyevin vurğuladığı kimi, həqiqətən də bu gün dünya mənəvi böhran içindədir. Qanlı toqquşmalar, qarşıdurmalar və müharibələr bugünkü dünyanın reallıqlarıdır. Təəssüflə qeyd etməliyəm ki, bu proseslərin mütləq əksəriyyəti müsəlman ölkələrində baş verir. Dünya bu dərin mənəvi böhrandan qurtulmaq üçün multikulturalizm və tolerantlıq ənənələrini gücləndirməlidir. İslam dinini doğru və düzgün yaşatmağa çalışan, eyni zamanda, dünyəvilik prinsiplərini də əsas alan ölkələr bu sahədə fəaliyyətlərini daha da genişləndirməli, radikal meylli qüvvələrin İslam dünyasına, bütövlükdə bəşər cəmiyyətinə qarşı yönəltdiyi aqressiv siyasətə qarşı öz güclərini birləşdirməlidir.

Bu baxımdan ölkəmizdəki multikulturalizm və tolerantlıq modeli dünya üçün nümunə ola bilər. Bu dəyərlərin iflasa uğradığını və ya təsirsizləşdiyini bildirən şəxslər Azərbaycana gəlib, ölkəmizin praktikada bu modeli necə yaşatdığını görə bilərlər. Məhz bu kontekstdən yanaşaraq, biz ölkəmizdəki multikultural mühitin, dövlət-din münasibətləri modelinin yaxından öyrənilməsinin bütün dünyaya faydalı olacağına inanır və tolerant təcrübəmizi dost ölkələrlə hər zaman bölüşməyə hazırıq.

Yeri gəlmişkən, bu yaxınlarda Tacikistan Respublikasında bu mövzuda keçiriləcək beynəlxalq tədbirdə mən cənab Prezidentimizin müvafiq fikirlərini tədbir iştirakçılarına çatdırmağa çalışacağam.

## "Dövlət və Din"in yeni sayı nəşr olunub




Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nəşri olan "Dövlət və Din" ictimai fikir toplusunun altıncı nömrəsi işıq üzü görüb.

Toplu Prezident İlham Əliyevin müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini qəbul etməsi, birinci Avropa Oyunlarında qalib gəlmiş idmançılarımız, onların məşqçiləri, Azərbaycan idman ictimaiyyətinin nümayəndələri və Oyunların təşkilində xidmətləri olan xarici tərəfdaşlarla görüş keçirməsi xəbərləri ilə oxucuların görüşünə gəlir.

Jurnalda yer alan "Mədəni diplomatiya anlayışı və onun Azərbaycan modeli" başlıqlı məqalədə müasir dövrdə siyasətdə mədəniyyət amilinin aktuallaşmağa başlamasından, əksər dövlətlərin öz mənafelərini müdafiə etmək və xarici siyasətlərini uğurla həyata keçirmək üçün beynəlxalq mədəni əlaqələrin qurulmasına böyük önəm verməsindən bəhs olunur. Bildirilir ki, müasir beynəlxalq münasibətlərin yeni təzahür formalarından biri dövlətlərlə yanaşı, ayrı-ayrı regionların, ölkələrin daxili subyektlərinin beynəlxalq aləmə çıxması və əməkdaşlıqda iştirakı hesab oluna bilər.

Topluda diqqət çəkən "Türkiyə Cümhuriyyətində dövlət-din münasibətləri: dünyəvilik və demokratiya" adlı məqalədə Türkiyədə dünyəviliyin, dövlət-din münasibətlərinin tarixindən söz açılır, demokratiyanın inkişaf prosesində qardaş ölkənin yaşadığı problemlərdən danışılır. Müəllif sonda belə nəticəyə gəlir ki, Türkiyədə demokratik sınaq nikbinliklə həyata keçirilir, çünki Türkiyə tarixi bir sıra demokratikləşmə təşəbbüslərindən meydana gəlmiş və bu təşəbbüslərin hər biri əvvəlkindən daha qüvvətli, daha davamlı olmuşdur və olmaqdadır.

Nəşrdə yer alan maraqlı yazılardan biri də "Mifoloji təsəvvürdə Zərdüştilik obrazları"dır. Məqalədə Azərbaycan şifahi xalq ədəbiyyatında Zərdüştilik motivləri tədqiq edilir. Müəllifin fikrincə, İslamdan sonra Zərdüştilik obrazları şifahi ədəbiyyatdan sıxışdırılsa da, nağıl və dastanlarda onun izləri indiyədək qalmaqdadır.

"Tanaxda əhd məfhumunu ifadə edən terminlər" başlıqlı məqalədə isə Yəhudiliyin müqəddəs kitabı Tanaxda Tanrının bəşəriyyətlə bir neçə dəfə əhd bağladığı bildirilir. Əhd məfhumunun bu kitabda ən çox ifadə edildiyi "berit" termininin üzərində dayanılır və onun özəlliyi açıqlanır.

Nəşrin bu sayında yer alan "Quran və sünnə baxımından kütləvi qırğın silahlarından istifadə" məqaləsində Müqəddəs Kitabımızda və hədislərdə insana qoyulan hörmət və dəyərdən, günahsız bir insanı qətlə yetirməyin bütün insanları öldürməyə bərabər hesab olunmasından, cana qıymağın qadağan edilməsindən və müharibə zamanı həddi aşmamaq barədə göstərişlərdən danışılır.

Həmçinin, "Sokratöncəsi yunan fəlsəfəsi: Milet məktəbindən Eleya məktəbinə qədər", "İbn Heysəm – Optika problemlərinin müsəlman tədqiqatçısı", "Quran ecazının işığında", "Seyid Mir Həmzə Nigari və dini maarifçilik", "Qərb tədqiqatçılarının Spinoza fəlsəfəsində yaradılış probleminə münasibəti" başlıqlı məqalələrin də yer aldığı toplunun sonunda bu sayda işlədilmiş terminlərin izahı verilib.

# Yardımlıda "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda ikigünlük regional konfrans keçirilib




İyulun 28-də Yardımlıda "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda ikigünlük regional konfrans işə başlayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Yardımlı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən konfransda Cəlilabad, Masallı və Yardımlı rayonlarında fəaliyyət göstərən dini icmaların rəhbərləri, din xadimləri, ictimaiyyət nümayəndələri, ziyalılar, gənclər iştirak ediblər.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək düzüb, xatirəsini ehtiramla yad ediblər.

Tədbirin açılışında çıxış edən Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov ölkəmizdə milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında və onun daha da inkişaf etdirilməsində Ümummilli Lider Heydər Əliyevin xidmətlərini vurğulayıb, Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən bu istiqamətdə həyata keçirilən tədbirlərdən danışıb.

Konfransda mövzu ilə bağlı DQİDK sədri Mübariz Qurbanlının məruzəsi dinlənilib. Komitə sədri çıxışında əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-din münasibətlərindən, dahi rəhbərin milli-mənəvi dəyərlərin qorunması istiqamətində misilsiz xidmətlərindən, ölkəmizdə hökm sürən tolerantlıq mühiti, ayrı-ayrı dinlər və etiqadlar arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətlərindən danışıb.



Sovet dönəmində ateizmin hökm sürdüyü dövrdə Yardımlıda milli-mənəvi dəyərlərin qorunduğunu vurğulayan Mübariz Qurbanlı bu ənənənin bu gün də "seyidlər məkanı"nda davam etdirildiyini diqqətə çatdırıb.

Qeyd olunub ki, Azərbaycan dünyəvi, hüquqi və demokratik dövlət olmaqla, həm də multikulturalizm və tolerantlıq ölkəsidir.

Prezident İlham Əliyevin 2014-cü il 27 noyabr tarixli Sərəncamına əsasən, ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan DQİDK-ya 2,5 milyon manat vəsaitin ayrıldığını vurğulayan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ölkəmizdə dini icmaların fəaliyyəti üçün hər cür şəraitin yaradıldığını bildirib.

İslam dinini radikalizmə sürükləmək meyillərinin artmasından, bəzi qüvvələrin İslamı siyasiləşdirərək daxildə qarışıqlıq yaratmaqla onu gözdən salmağa çalışmasından, terrorla əlaqələndirmək istəklərindən danışan Komitə sədri gənclərimizin dini və mənəvi-əxlaqi dəyərlərimizə yad olan radikal təriqətlərin təsirindən qorumaq məsuliyyətinin bütün cəmiyyətin üzərinə düşdüyünü diqqətə çatdırıb.

Konfransda DQİDK sədrinin birinci müavini Səyyad Salahlı və Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Mirqiyas Təhməzov mövzu ilə bağlı çıxış ediblər.

Konfransın ilk iş günü başa çatdıqdan sonra Komitə sədri Mübariz Qurbanlı Yardımlı şəhərindəki "Cümə" məscidində dindarlarla görüşüb, məscidə kitablar hədiyyə edib.

İyulun 29-da konfrans öz işini panellər formatında davam etdirib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlının moderatorluğu ilə "Ənənəvi dini dəyərlərimiz və gənclik" mövzusunda keçirilən plenar iclasda Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, Komitənin Masallı bölgəsi üzrə şöbəsinin müdiri Miryəhya Bədirov, eləcə də rayon ictimaiyyətinin nümayəndələri, ziyalılar və gənclər iştirak ediblər.

Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov "Milli-mənəvi dəyərlərimiz və müasir gənclik" mövsuzunda çıxış edərək, bu sahədə Azərbaycan hökumətinin, o cümlədən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin həyata keçirdiyi tədbirlərdən danışıb. Sədr müavini bildirib ki, bu sahədə gənclərimizin üzərinə böyük məsuliyyət və vəzifə düşür. Bu vəzifəni uğurla yerinə yetirmələri üçün gənclərimiz dinlər, xüsusilə İslam dini ilə bağlı kifayət qədər məlumatlı olmalıdırlar. Gündüz İsmayılovun fikrincə, gənclər həm zərərli ideoloji cərəyanlardan özlərini qorumalı, həm də onlara qarşı mübarizə aparmalıdırlar.

Daha sonra Dövlət Komitəsinin Masallı bölgəsi üzrə şöbəsinin müdiri Miryəhya Bədirov mövzu ilə bağlı çıxış edib. Şöbə müdiri gənclər arasında dini maariflənmənin gücləndirilməsinin vacibliyini vurğulayaraq, bu sahədə bölgələrdə dini maarifçilik işlərinin daha da inkişaf etdirildiyini, gənclər arasında dini savadlılığın artırılması istiqamətində tədbirlər görüldüyünü deyib.

# Regionlarda dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği ilə bağlı tədbirlər təşkil edilib

Prezident İlham Əliyevin 27 noyabr 2014-cü ildə imzaladığı Sərəncama əsasən, ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədi ilə dini icmalara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə (DQİDK) 2,5 milyon manat vəsait ayrılıb. Həmin maliyyə vəsaiti hesabına maarifləndirmə işinin aparılması məqsədilə Dövlət Komitəsinin dəstəyi ilə tədbirlər təşkil edilir.

Bu məqsədlə Bakının Qaradağ, Xətai, Sabunçu, Yasamal, Abşeron, Xəzər və Səbail rayonlarında, eləcə də Sumqayıtda, Qubada, İsmayıllıda, Biləsuvarda, Masallıda, Lənkəranda, Şəkidə, Cəlilabadda, Zaqatalada, Qaxda, Tovuzda, Samuxda, Ağdamda, Yevlaxda, Sabirabadda, Şirvanda, Göyçayda, Balakəndə və s. şəhər və rayonlarımızda layihələr çərçivəsində "dəyirmi masa"lar, tədbirlər keçirilib, iftar süfrələri açılıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyinin və əməkdaşlarının, dini icma üzvlərinin, imam və axundların, ilahiyyatçı ekspertlərin, ağsaqqalların, ziyalıların və gənclərin iştirak etdikləri tədbirlərdə dövlət başçısının dini icmalara dini maarifləndirmə və milli-mənəvi dəyərlərimizin qorunması ilə bağlı maliyyə yardımı ayırması dövlətin dinə olan qayğısının təzahürü kimi qiymətləndirilib. Dini icmalara ayrılmış vəsaitin onların fəaliyyətində aktivlik yaradacağına və layihələr çərçivəsində cəmiyyəti narahat edən neqativ halların aradan qaldırılması üçün səy göstəriləcəyinə əminlik ifadə olunub. Qeyd edilib ki, layihələr çərçivəsində sağlam dini biliklərə söykənən maarifləndirmənin aparılması ilə yanaşı, cəmiyyətdə mövcud olan sosial problemlərin həlli istiqamətində də tədbirlər həyata keçiriləcək. Milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan ailə dəyərlərimizin qorunması, erkən nikah, boşanmalar kimi xoşagəlməz hallar, narkomaniya, siqaret, alkoqolizm kimi zərərli vərdişlərdən uzaq olmaq istiqamətindəki çağırışlar da layihələrin əsas mövzularındandır.

# İtaliyada “Via della seta” jurnalının növbəti nömrəsi çap edilib




Azərbaycan-İtaliya Assosiasiyasının səyi nəticəsində ərsəyə gələn “Via della seta” (“İpək yolu”) jurnalı ildə dörd dəfə çap edilir. Jurnalın nəşrində əsas məqsəd Azərbaycan-İtaliya əlaqələrinin inkişafına töhfə verməkdir. Azərbaycan həqiqətlərinin İtaliya ictimaiyyətinə çatdırılması baxımından böyük əhəmiyyət kəsb edən nəşr vasitəsilə italiyalı oxucular ölkəmizin beynəlxalq əlaqələri, iqtisadi inkişafı, zəngin mədəni irsi və qədim tarixi barədə ətraflı məlumat əldə edirlər.

“Via della seta” jurnalının növbəti nömrəsində ölkəmizin mədəniyyəti, iqtisadiyyatı, turizm və idman sahələrindəki potensialı, İtaliya ilə müxtəlif istiqamətlərdə əlaqələrimiz barədə məlumatlarla yanaşı, Azərbaycanda hökm sürən tolerantlıq mühitindən də bəhs edilib.

Jurnalda Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Vatikanda Katolik Kilsəsinin rəhbəri Papa Fransisk ilə görüşü barədə məlumat verilib və səfərin dövlətlərimiz arasındakı əlaqələrə töhfəsi geniş təhlil olunub.

Bununla yanaşı, jurnaldakı “Azərbaycanın tolerantlıq modeli dünya üçün örnək ola bilər” sərlövhəli yazıda ölkəmizdə mövcud multikultural mühitin Avropada, o cümlədən İtaliyada təbliği istiqamətində keçirilmiş tədbirlərdən bəhs olunur. Ötən ilin dekabr ayında Romada Azərbaycan Milli Məclisi və İtaliya Senatı tərəfindən “İslam ənənəli dövlətlərdə dini birgəyaşayış. Müsəlman ölkəsində müxtəlif dinlərin yanaşı mövcudluğu: Azərbaycan təcrübəsi” mövzusunda keçirilən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının da iştirak etdiyi konfrans barədə jurnalda geniş məqalə çap edilib.

Həmçinin, Komitə sədrinin İslam ölkələrində dünyəviləşmə anlayışının tarixindən və Azərbaycanda aparılan din siyasətindən, bu siyasətin beynəlxalq hüquq prinsipləri və normaları çərçivəsində həyata keçirilməsindən bəhs edən “İslam dünyasında dövlət-din münasibətləri: dünyəviləşmə problemi” mövzusunda məruzəsi də nəşrdə öz əksini tapıb.

Bununla yanaşı, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının jurnalda müsahibəsi də dərc olunub. Komitə sədri jurnalın Azərbaycanda mövcud olan dini və milli tolerantlıq ənənələri, Dövlət Komitəsinin Azərbaycandakı multikultural mühitin qorunub saxlanılmasında rolu, dini konfessiyalar arasında münasibətlər, dini maarifləndirmənin effektivliyinin artırılması üçün həyata keçirilən tədbirlər, beynəlxalq əlaqələr və digər mövzularla bağlı sualları cavablandırıb.

# Vyanada ATƏT-in İnsan ölçüsü üzrə növbəti görüşü keçirilib



Avstriyanın paytaxtı Vyanada keçirilən iki günlük ATƏT-in İnsan ölçüsü üzrə növbəti görüşündə ölkəmizi Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidmətinin əməkdaşı Etibar Nəcəfov və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Xarici əlaqələr şöbəsinin müdir müavini Aqşin Axundov təmsil ediblər.

Görüş cari ilin 21 sentyabr-2 oktyabr tarixlərində Varşavada keçiriləcək ATƏT-in İnsan ölçüsü üzrə növbəti illik görüşünə hazırlıq məqsədi daşıyıb. Görüşdən əvvəl Azərbaycandan olan nümayəndələr “Holokostda yəhudiləri xilas etmiş müsəlmanlar” mövzusunda keçirilmiş kənar tədbirdə iştirak ediblər. Sözügedən tədbir İngiltərənin Mançester şəhərində fəaliyyət göstərən “Etiqad məsələsi” adlı yəhudi təşkilatı tərəfindən təşkil edilib. Dövlət Komitəsinin nümayəndəsi Aqşin Axundov yəhudilərin Azərbaycanda məskunlaşması tarixi, ölkəmizdə mövcud olan birgəyaşayış ənənəsi barədə məlumat verib. O, yəhudilərin yaşadıqları Holokost hadisəsi kimi azərbaycanlıların da Xocalı soyqırımına məruz qaldığını vurğulayaraq bildirib ki, ahıl, uşaq və qadınlar da daxil olmaqla 613 nəfər Xocalı sakini 1992-ci il fevralın 25-dən 26-sına keçən gecə erməni hərbi birləşmələri tərəfindən öldürülüb. Dövlət Komitəsinin nümayəndəsi bu faciənin dünyaya tanıdılması, ümumiyyətlə, Azərbaycan həqiqətlərinin beynəlxalq səviyyədə təbliği baxımından dünyada böyük nüfuza malik olan yəhudi təşkilatlarının yardımına ehtiyac yarandığını bildirib.

Təşkilatın rəhbəri Fiyaz Mughal 2013-cü ildə Azərbaycana səfər etdiyini, ölkəmizdəki tolerantlıq mühitinin əyani şahidi olduğunu vurğulayıb. Təşkilat rəhbərliyi Xocalı soyqırımı barədə səthi məlumatlarının olduğunu, lakin gələcəkdə bu faciənin beynəlxalq səviyyədə təbliği istiqamətində birgə tədbirlərin təşkilinə hazır olduqlarını qeyd edib.

# Dini radikalizmlə mübarizə çərçivəsində növbəti tədbir keçirilib

Daxili İşlər Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında imzalanmış “Dini radikalizmlə mübarizənin effektivliyinin artırılması məqsədilə Daxili Qoşunların şəxsi heyətinin maarifləndirilməsi istiqamətində birgə işin təşkilinə dair Tədbirlər Planı”na uyğun olaraq Daxili Qoşunların Bakı şəhərində yerləşən N saylı hərbi hissəsində görüş keçirilib. “Dini radikalizm və onun təzahür formaları” mövzusunda keçirilən görüşdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov iştirak edib.

S.Heydərov çıxış edərək ölkədəki mövcud dini vəziyyət, dövlətin dini etiqad azadlığının təminatı üzrə gördüyü işlər, ölkəmizdə radikalizm meyillərinin yaranması və bununla əlaqədar mövcud tendensiyalar, bu meyillərin yayılmasında maraqlı olan qüvvələr haqqında danışıb. Görüşdə, həmçinin radikalizmə meyilli şəxslərin fəaliyyət istiqamətləri, metodları, həvəsləndirici və s. vasitələr, eləcə də dini ekstremizmə qarşı keçirilən maarifləndirmə və koordinasiya işinin təşkili üzrə kompleks tədbirlər barədə iştirakçılara məlumat verilib.

# Köhnə qanunvericiliklə fəaliyyət göstərən 8 dini icmanın qeydiyyatı ləğv olunub

“Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin Zaqatalada 4 məscidlə bağlı narahatlığı artıq aradan qalxıb. Əsas problem Car kənd məscidi, Uzuntala kənd məscidi, Bereq Binə kənd məscidi və Yolayrıc kənd məscidlərində idi. Problem təqvim və qeydiyyatla bağlı idi ki, bu da həll olunub. Hazırda Qaxda 2, Zaqatalada 5, Balakəndə isə 1 məsciddə dini icmanın qeydiyyatı ləğv edilib. Bu icmalar köhnə qanunvericiliklə qeydiyyatda olub, ona görə də 2009-cu ildən tətbiq olunan qanunvericilik əsasında yenidən qeydiyyatdan keçməlidir”.

Bunu APA-ya Azərbaycanın Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Zaqatala bölgəsi (Qax, Zaqatala və Balakən rayonları) üzrə yerli şöbənin müdiri Mehman İsmayılov deyib.

M. İsmayılov Car kənd məscidi ilə bağlı şikayətlərə cavab olaraq deyib ki, bu problem artıq həll olunub: “Bu problem o məsciddə əvvəldən var idi, Ramazan ayı ərəfəsində isə özünü daha qabarıq göstərirdi. Demək olar ki, məsələ həll olunub. Artıq o məsciddə QMİ-nin təqvimlərinə riayət olunur. Oradakı eyni adlı dini icmanın qeydiyyatı məsələsinə gəldikdə, yeni icmanın qeydiyyata alınması üçün köhnə icmanın ləğvi lazım olduğundan hazırda o icmanın ləğv olunması prosesi başlayıb. Çünki 2009-cu ildə qəbul olunan yeni qanuna əsasən, icmalar yenidən qeydiyyatdan keçməlidir, lakin o icma yenidən qeydiyyat üçün müraciət etməmişdi, 2001-ci ildəki qeydiyyat əsasında fəaliyyət göstərirdi. Həm də o icmanın cəmi 5-6 üzvü həyatda qalıb, qalanı rəhmətə gedib. Yeni qanunvericiliyə görə Car kənd məscidində də 51 nəfərdən ibarət yeni icma formalaşdırılacaq”.

M.İsmayılov bildirib ki, hazırda yeni qanunvericiliyin tələblərinə uyğun olaraq Zaqatalada 32, Balakəndə 9 və Qaxda isə 13 dini icma qeydiyyatdan keçib.

Komitə rəsmisi onu da bildirib ki, Şeyxülislamın müraciətindən sonra QMİ-yə tabe olmayan həmin 4 məscidin heyəti ilə ayrı-ayrılıqda görüş keçirilib və problem qarşılıqlı anlaşma ilə həll olunub: “Artıq onlar QMİ-nin təqvim və təlimatlarına əməl edirlər. Bununla yanaşı, daha bir neçə kənd məscidinə QMİ tərəfindən imam təyinatı olacaq”.

# Dövlət Komitəsinin dövlət-din münasibətlərini tənzimləyən rəsmi sənədlər toplusu nəşr olunub




Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən Azərbaycanda ilk dəfə olaraq “Azərbaycan Respublikasında dövlət-din münasibətlərini tənzimləyən rəsmi sənədlər” toplusu nəşr edilib. Kitab bu sahədə son dövrlərdə hazırlanmış ən mütərəqqi nəşrdir. Topluda din və etiqad azadlığı ilə bağlı beynəlxalq normaların öz əksini tapdığı Azərbaycan Respublikasının Konstitusiyasındakı maddələr, “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” konvensiyanın və protokolların təsdiq edilməsi barədə qanunlar, “Dini etiqad azadlığı haqqında” qanun, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Əsasnaməsi və digər rəsmi sənədlər yer alıb.

Nəşrdəki dövlət və din münasibətlərini tənzimləyən sənədlər həm dövlət qurumları, həm dini icmalar, həm də hər bir vətəndaş üçün bu sahədə yaranacaq sualları cavablandırmağa kömək edəcəkdir.

Kitabın tərtibçisi Dövlət Komitəsinin Kadrlarla iş sektorunun müdiri Bəhruz Müslümov, nəşrə məsul şəxs Hüquq və qeydiyyat şöbəsinin müdiri Səbinə Allahverdiyevadır.

# Vəhdəti vəhşətə çevirənlər



İslam dedikdə çoxları hazırda bəzi ölkələrdə yaşanan "şəriət qaydaları"nı başa düşür. Halbuki Qurana deyil, adət-ənənələrə və uydurma hədislərə əsaslanan bu "qaydalar"la Quranın bizə təbliğ etdiyi din eyniləşdirilə bilməz. Əgər dünyada Quranın bizə öyrətdiyi həqiqətlər hakim olsaydı, "**Dində məcburiyyət (zorakılıq) yoxdur...**" (Bəqərə, 256) hökmünə əməl olunar, mal-mülk hərisliyi olmaz, dinimizin yoxsulu qorumağa və öz nəfsindən əvvəl qardaşının nəfsini düşünməyə təşviq edən gözəl hökmünə əsaslanan həyat tərzi üstünlük təşkil edərdi. Həyat standartları yüksək və keyfiyyətli olar, elm və incəsənətə yüksək dəyər verilərdi. Heç bir irqi və dini ayrı-seçkiliyə yol verilməz, bütün millətlərə sevgi və şəfqətlə yanaşılardı. Söz və fikir azadlığı olar, lakin əsla təhqirə, şiddət və təzyiqə yol verilməzdi. Quranın "**...hər kəs bir kimsəni öldürməmiş (bununla da özündən qisas alınmağa yer qoymamış) və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur...**" (Maidə, 32) xəbərdarlığına əməl edilərdi. Müsəlman olduğunu iddia edənlər digər məzhəbdən olanları asanlıqla öldürməzdi.

Təəssüf ki, bu gün İslam şəriətinin hakim olduğu ölkələrdə bu sistem demək olar ki, tam deyil. Çünki şəriət adı altında tətbiq olunan bəzi qaydalar Quranın təməl prinsipləri ilə uyğun gəlmir. Ona görə də, İslam təlimini ilk növbədə xurafatlardan təmizləmək və Quran əxlaqına uyğun yaşamaq lazımdır.

Çünki Quran əxlaqı sevgi, şəfqət, mərhəmət, təvazökarlıq, fədakarlıq, dözümlülük və barış anlayışlarına əsaslanır. Bu əxlaqı həqiqətən yaşayan müsəlman son dərəcə nəzakətli, incə düşüncəli, xoşgörülü, etibarlı olar, ətrafına sevgi, hörmət, rahatlıq və həyat sevinci bəxş edər.

Elə "İslam" kəlməsinin mənası da "sülh, təhlükəsizlik, razılaşma və uzlaşma" deməkdir. Mənasına uyğun olaraq da sülh və əminamanlığın hakim olduğu cəmiyyət formalaşdırmağı qarşısına məqsəd qoymuşdur. Bunun üçün yaxşılığı, gözəlliyi, sevgini, qardaşlığı, mərhəməti, ədaləti, yardımlaşmağı, həmrəyliyi, bir sözlə, insan üçün faydalı olan hər cür ictimai və əxlaqi prinsipləri tövsiyə etmişdir. Şiddəti, işgəncəni və ən pisi də insanların yaşamaq hüquqlarını əllərindən almağı qadağan etmişdir. İnsanların şərəf və ləyaqətini alçaltmağı, onları təhqir etməyi, onlara lağ etməyi xoş qarşılamamışdır.

Təəssüflə qeyd etməliyik ki, bu gün bəzi İslam ölkələrində yaşanan qanlı, xoşagəlməz hadisələr dinlə əlaqələndirilməyə çalışılır. Halbuki sülhə, qardaşlığa, mərhəmətə dəvət edən dinin zorakılıqla, qan axıtmaqla heç bir əlaqəsi ola bilməz. Sadəcə bəzi insanlar öz əməllərinə haqq qazandırmaq üçün din pərdəsi altında gizlənir, ya da cahillikdən (İslama ləkə salmaq üçün bilərək də edilə bilər) bu cür əməllər törədirlər. Olan isə yalnız dinə və günahsız insanlara olur.

İslam bizə ədaləti, demokratiyanı, azadlığı öyrətdiyi halda, dini məcburi şəkildə qəbul etdirməyə çalışanların, öz məzhəbindən olmayanları asanlıqla öldürənlərin, Qurana əsaslanmayan hökmləri tətbiq etməyə çalışanların Qurana əsaslanmadığı aşkar görünür. Halbuki dinimizin bizə göstərdiyi yola tabe olsalar, sevginin hakim olduğu, heç kimin inanc azadlığının məhdudlaşdırılmadığı, hər kəsin bolluq içində yaşadığı cəmiyyət yaranar. Qurana əsaslanan cəmiyyətdə xurafatlara yer olmadığı üçün radikalizm də aradan qalxar. Xurafatlara əsaslanan qaydaların əvəzinə Qurana əsaslanan dini maarifləndirmə isə İslamı vəhdət deyil, vəhşət dini kimi göstərməyə çalışanlara çox gözəl cavab olar.

***Nərmin KƏRİMZADƏ***

# DQİDK-nın üç bölgəsi üzrə şöbələri üçün seminar-treninq keçirilib

Lənkəran şəhərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şirvan, Masallı və Lənkəran bölgəsi üzrə şöbələrinin əməkdaşları üçün seminar-treninq keçirilib. DQİDK-nin ştat vahidinin artırılması və yeni əməkdaşların cəlb olunması ilə əlaqədar olaraq Komitənin bölgə şöbələrinin fəaliyyətində səmərəliliyin artırılması, dövlət-din münasibətləri sahəsində strateji hədəflər istiqamətində məlumatlılığın təmin edilməsi məqsədi ilə keçirilən seminar-treninqdə DQİDK-nın sədr müavini Səyavuş Heydərov, Komitənin Maliyyə-təsərrüfat şöbəsinin müdiri Oktay Hüseynov, Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov, Dini təhsil sektorunun müdiri vəzifəsini icra edən Anar Əlizadə, sektorun baş məsləhətçisi Anar Əliyev, Şirvan bölgəsi üzrə şöbənin müdiri Aydın Alıyev, Masallı bölgəsi üzrə şöbənin müdiri Miryəhya Bədirov, Lənkəran bölgəsi üzrə şöbənin müdiri Qağayı Məmmədov və şöbələrin əməkdaşları iştirak ediblər.

Seminarda Dövlət Komitəsinin sədr müavini S.Heydərov DQİDK-nın ümumi iş prinsipi və qarşıya qoyulmuş strateji hədəflər barədə geniş məlumat verərək, bölgədəki dini durum, eləcə də regionun özünəməxsus cəhətlərindən danışıb.

Daha sonra şöbə müdiri Ə.Zülfüqarov əməkdaşların fəaliyyət istiqamətləri ilə yanaşı, dövlət qulluqçusunun etik davranış qaydası, kargüzarlıq işinin təşkili, arayış və hesabatların hazırlanması metodologiyası və digər bu kimi məsələlər haqqında seminar iştirakçılarına məlumat verib.

Dini təhsil sektorunun müdiri vəzifəsini icra edən A.Əlizadə çıxış edərək dini təhsil sahəsi və qeyri-müsəlman cərəyanların ölkəmizdəki fəaliyyəti, bu istiqamətdə görüləcək işlər barədə danışıb.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

AYNAmız

# Həzrət Məhəmməd və GƏNCLƏR

*Dünyada gənclərin üzləşdiyi problemlərə diqqət çəkmək, həmin problemlərin həll yollarını tapmaq və gənclərə dəstək olmaq məqsədilə 12 avqust Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən Beynəlxalq **Gənclər Günü** kimi elan edilib. Bu günün yaxınlaşdığını nəzərə alaraq biz də dinimizin və onun Elçisinin gənclərə, gəncliyə münasibətini ortaya qoymağa çalışdıq.*

Allah-Təala insanı hər baxımdan digər canlılardan üstün, kainatın ən seçkin və şərəfli varlığı olaraq yaratmışdır. İnsanın ən məhsuldar dövrü isə gənclikdir. Odur ki, Uca Yaradanın bizə lütf etdiyi mühüm nemətlərdən olan bu dövrü layiqincə dəyərləndirməliyik.

Məhəmməd peyğəmbər (s) də gəncliyə və gənclərə böyük önəm vermiş, *"İnsanoğlu qiyamət günü beş şeydən sorğuya çəkilmədikcə Rəbbinin hüzurundan ayrıla bilməyəcəkdir. Bu beş şeydən biri də gəncliyini harada və necə keçirdiyidir"* (Tirmizi, Qiyamət, 1) buyuraraq gənclik dövrünə diqqət çəkmişdir.

Sonuncu Səmavi Elçi (s) gənclərlə mehriban, şəfqətli və güləruz davrandığından, onlar da Peyğəmbərə (s) ürəkdən bağlanmışlar. Həzrət Məhəmmədin (s) gəncləri təşviq edən isti və səmimi rəftarı sayəsində gənc səhabələr canlarını, mallarını Allah yolunda fəda edəcək dərəcədə iman gətirmişdilər. Məkkəlilərdən gördükləri təzyiqlər, işgəncələr, aclıq, mühasirə illəri onları əsla bu yoldan döndərməmişdir.

Allah Rəsulunun (s) uşaqlara nə qədər böyük sevgi bəslədiyini və bunun təktərəfli olmadığını Zeyd ibn Harisə hadisəsindən də anlamaq mümkündür. O, səkkiz yaşında kiçik çoban ikən anasıyla birlikdə qohumlarının yanına getmiş və başqa bir qəbilənin basqını əsnasında əsir alınmışdı. Həzrət Xədicənin qardaşı oğlu Hakim ibn Hizam onu qul bazarından 400 dirhəmə satın alaraq Məkkəyə gətirmişdi. Həzrət Xədicə Zeydi qardaşı oğlundan almış, Peyğəmbər (s) isə onu oğulluğa götürmüşdü. Atası onun yerini öyrənmiş və Həzrət Məhəmməddən (s) Zeydi istəmişdi. Allah Rəsulu (s) Zeydi sərbəst buraxdığı halda, o, atası ilə getməmiş, Rəsulullahın (s) yanında qalmışdı.

İslam dini üçün gənclərin əhəmiyyəti böyükdür. Belə ki, yaşlılardan öncə onlar bu dini qəbul etmiş, əvəzedilməz fədakarlıqlar göstərərək inandıqlarını müdafiə etmiş və başqalarını da İslama dəvət etmişlər.

İslamı qəbul edən səhabələrin böyük əksəriyyətinin yaşı otuzdan aşağı olmuşdur. Onlar arasında Həzrət Əli (ə) İslamın ilk günündən etibarən, hələ on yaşında ikən bu dinin ilk mənsubu olma şərəfini qazanmışdır. Onun böyük qardaşı Həzrət Cəfər (ə) iyirmi, Zübeyr ibn Avvam on iki, Həbbab ibn Ərət on altı, Kudamə ibn Məzun iyirmi, Səd ibn Əbu Vaqqas on doqquz, Uhud döyüşündə özünü Peyğəmbərə (s) sipər edən Təlha ibn Übeydullah on dörd və ya on səkkiz, Abdullah ibn Məsud on altı yaşında və daha bir çox əshab gənc yaşda İslam ilə şərəflənmişlər. Peyğəmbərimiz (s) mövzu ilə bağlı buyurmuşdur: *"Mənə gəncliyin yardımı lütf edildi"*.

İslam bu dinin taleyində böyük rol oynayan gənclərin çiyinlərində yüksəlmişdir. Allah Rəsulu (s) Təbuk səfərində bayrağı iyirmi yaşlı Zeyd ibn Sabitə vermiş, eyni yaşda olan Usamə ibn Zeydi Suriyaya göndərdiyi orduya başçı, yenə iyirmi yaşında olan Əttab ibn Əsidi isə Məkkəyə vali təyin etmişdir.

Dinimizin ikinci əsas qaynağı olan Peyğəmbər (s) sünnəsinin bizə çatmasında mühüm vəzifəni yenə gənc səhabələr öz üzərlərinə götürmüşlər. Rəsulullah (s) gənclərin elmli yetişməsinə əhəmiyyət vermiş, vəhy katiblərini də gənclərdən seçmişdir. İslama dəvət məktublarını gənclərə yazdırmış, bəzi gəncləri o dövrdə çox ehtiyac duyulan xarici dilləri öyrənməyə təşviq etmiş və *"Gəncliyində elm öyrənən daşdakı damğa kimi, ahıl çağında öyrənən isə su üzərinə yazı yazan kimidir"* (Əcluni, "Kəşfül-Xəfa", 2:66) buyurmuşdur.

Göründüyü kimi, Allah Rəsulu (s) cəmiyyətin formalaşmasında, İslam dəyərlərinin yayılmasında və yaşanmasında gənclərə böyük vəzifələr və öhdəliklər vermişdir. Həmin dövrdə vəzifə və məsuliyyətlərinin əhəmiyyətini anlayan komandirlər, valilər, alimlər və hakimlərin yetişməsi məhz Məhəmməd peyğəmbərin (s) gənclərə xüsusi marağı, köməyi və təşviqi sayəsində olmuşdur. Çünki o, gənclərin cəsarət, bacarıq və enerjilərindən lazımınca faydalanmaq üçün hər şeydən əvvəl, onların özlərinə güvənən, möhkəm xarakterə sahib şəxs kimi yetişmələrinə imkan yaradılmasının əhəmiyyətini çox yaxşı bilirdi.

İngilis dövlət xadimi Benjamin Dizraeli söyləyirdi ki, *bir ölkənin gəncləri onun rifahının təminatçısıdır.* Gənclərimizin milli-mənəvi, ümumbəşəri dəyərlərə sadiq yetişdirilməsi sabaha ümidlə baxmağımıza, sağlam və güclü cəmiyyət formalaşdırmağımıza əminlik yaradır. Bu məsələdə ən çox yük və məsuliyyət də ilk növbədə valideynlərin, müəllimlərin, din xadimlərinin və ümumilikdə cəmiyyətin üzərinə düşür.



**Oqtay ORUC**

# Qurani-Kərim və fəlsəfi təfsir

(I yazı)



Qurani-Kərimin ilk təfsirçiləri Allah-Təalanın Özü və Onun Peyğəmbəri (s) olmuşdur. Rəsulullah (s) fani dünyanı tərk etdikdən sonra səhabələr, daha sonra da tabein tərəfindən fərqli təfsirlər ortaya qoyulmuşdur. Beləliklə, zaman keçdikcə müxtəlif təfsir metodları yaranmışdır: hədislərlə təfsir, elmi təfsir, şəxsi fikirlərə əsaslanan təfsir və s.

Allah-Təala Müqəddəs Kitabımızda buyurur ki, "...Yerin zülmətləri içində elə bir toxum, (kainatda) yaş-quru elə bir şey yoxdur ki, açıq-aydın kitabda (lövhi-məhfuzda) olmasın!" (Ənam, 59). Burada belə bir sual ortaya çıxır: axı niyə qəbul etməliyik ki, Allah-Təala "Əhəd"dir, "Səməd"dir, Onun bənzəri yoxdur? ("İxlas" surəsi). Biz bunları necə isbat edə bilərik? Axı bunları qəbul etmək sadəcə təqlid etməkdir. Onda nə üçün Yaradan bizi Quranda təqlidə çağırır? Nə üçün biz Allaha inanmayan bir şəxsə "Qul huvallahu Əhəd, Allahu Saməd" ("İxlas surəsi") dedikdə, o, Allahın bu kəlamını qəbul etməlidir? O, Allaha inanmır. Belə olduğu təqdirdə Onun kəlamını necə qəbul etsin? Onda nə üçün Yaradan insanları məhz bu şəkildə (təqlidlə) Özünə tərəf dəvət edir? Digər tərəfdən də Allah Qurani-Kərimdə dəfələrlə buyurur ki, "Məgər düşünmürsünüzmü?", "Bu, hikmətdir", "Bunda ağıl sahibləri üçün dəlillər vardır" və s. Yəni:

1 – Allah bir tərəfdən insanları xəbər cümlələri şəklində olan hökmlərlə Özünə tərəf dəvət edir. Biz bu hökmlərin isbatını haradan öyrənək? Haradan bilək ki, doğrudan da, ayələrin dediyi kimi, Allah birdir, Onun şəriki yoxdur, Odur sahib, hər şey Ona qayıdacaq və s.

2 – Digər tərəfdən də bir sıra ayələrdə buyurur ki, Quran hikmətli kitabdır, onda heç bir yalan yoxdur, heç bir batil ona yol tapa bilməz.

Bu iki sözdən belə nəticə alınır ki, əslində, ayələrin isbatı elə Quranın özündə vardır (Bir çox ayələrdə deyir ki, Quran özü-özünü bəyan edən, izah edən bir kitabdır). Amma bunun üçün bir sıra aksiomlar və ayələrin bir-biri ilə necə əlaqələndirildiyini bilmək lazımdır.

Allahın Quranda gətirdiyi kəlamlar riyazi qanunlar kimidir. Onların hamısı bir-birindən "asılı"dır və bu kəlamların isbatı üçün bütün insanların qəbul etdiyi bir sıra aksiomlar kifayətdir. Bu aksiomların bəziləri elə Quranın özündə verilmişdir, bəzilərini isə verməyə ehtiyac yoxdur. Təkcə bu asılılığı və aksiomları göstərmək lazımdır. Həzrət Məhəmmədin (s) vəzifəsi də elə bu idi. Əlbəttə, qeyd edək ki, o zaman bunu tam həyata keçirmək mümkün deyildi. Çünki ərəblər onda cahiliyyə dövründə yaşayırdı. Bununla belə, Quranda bəzi kəlamlar aksiom kimi (əgər belə demək mümkündürsə) gətirilmişdir. Buna misal olaraq "Ənbiya" surəsinin 22-ci ayəsini göstərə bilərik: "Əgər (yerdə və göydə) Allahdan başqa tanrılar olsa idi, onların ikisi də (müvazinətdən çıxıb) fəsada uğrayardı". Ayənin sadə mənası budur ki, əgər Allahdan başqa da tanrı olsaydı, həmin tanrı da öz nişanəsini göndərərdi, halbuki aləmdəki hər bir varlıqda vahidlik görünür. Nəhəng göy cisimləri olan planetlərin (makro aləm) hərəkətindən tutmuş kiçik zərrələr sayılan atomların (mikro aləm) hərəkətinədək, insanın bədən quruluşundan tutmuş qarışqanın bədəninədək bütün yaradılmışlar ümumi olaraq eyni formadadır. Bu da onu göstərir ki, aləmdə vahid bir Hakim hökm sürür. Əlbəttə, ayə haqqında dediyimiz bu söz o dövr insanı üçün dəlil ola bilərdi, amma müasir zamanda elə iradlar irəli sürülür ki, artıq yuxarıdakı sözümüz kifayət etmir. Bununla belə, həmin ayənin fəlsəfi təfsirinə aksiomları nəzərə alaraq müraciət etdikdə görürük ki, doğrudan da, "Əgər (yerdə və göydə) Allahdan başqa tanrılar olsa idi, onların ikisi də (müvazinətdən çıxıb) fəsada uğrayardı".

Bəli, Quranın dəqiq və qüsursuz kitab olduğunu göstərmək üçün sadəcə ayələr arasındakı qeyd olunan asılılığı və əqlin qəbul etdiyi aksiomları üzə çıxarmaq lazımdır. Bəzi alimlərimiz bunun öhdəsindən gələrək bir sıra ayələrin həqiqətini açıqlaya bilmişlər.

Həmin alimlərdən biri dövrünün böyük alimi, riyaziyyatçısı, astronomu və təbibi, İslamın əzəmətli filosofu Əbu Əli İbn Sinadır (980-1037). Onun bir çox fəlsəfi əsəri vardır. Bunlardan ən önəmlisi "İşarat" və "Şəfa" kitabıdır; tibb sahəsində isə "Qanun" kitabı məşhurdur.

Allahın varlığının isbatı üçün qədim zamanlardan bəri alimlər, filosoflar müxtəlif dəlillər irəli sürmüşlər. Onlar Yaradanın varlığını maddi aləmdəki müəyyən maddi fenomenlə isbat edirdilər. Məsələn, Aristotel hərəkətin varlığı ilə Allahın varlığını isbat etməyə çalışmışdır. Bu cür dəlillər tam fəlsəfi isbat deyil. Bunlara elmi-təcrübi və ya yarım-fəlsəfi sübut deyilir. Buna görə də filosofları maddi fenomenlərdən (məxluqlardan) istifadə olunmadan Allahın varlığının isbatı üçün verilən dəlillər, sübutlar maraqlandırırdı. Onlar Yaradanın varlığını heç bir maddi fenomendən istifadə etmədən isbata çalışırdılar. Təqribən eyni dövrdə yaşamış İbn Sina və məsihi filosofu Anselm (1033-1109) belə düşünürdü. Sonradan Anselmin sübutu haqqında müxtəlif fikirlər irəli sürüldü. Bəziləri onu qəbul etdi, bəziləri isə onun sofizm olduğunu söylədi. Alman filosofu Kant da bu sübut haqqında ikinci qisim alimlər cərgəsində yer alırdı.

İbn Sinanın sübutuna gəlincə, bu böyük şəxsiyyət öz sözünü qətiyyətlə demişdir. Məşhur alimin Quranın bir ayəsini təfsir edən həmin dəlilinə baxaq.

**İbn Sinanın dəlili və "Fatir" surəsinin 15-ci ayəsinin fəlsəfi təfsiri**

Adı çəkilən ayədə Allah-Təala belə buyurur: "Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə (heç nəyə, o cümlədən sizin ibadətinizə) möhtac deyildir. O (hər cür) şükrə (tərifə) layiqdir! (Onun bütün işləri bəyənilləndir!)" Ümumiyyətlə, Quran Yaradan ilə bütün mövcudat arasında varlıq, vücud cəhətindən olan rabitəni belə göstərir: hər şey Allaha bağlıdır, Ona möhtacdır, Allahın isə heç nəyə ehtiyacı yoxdur və heç nədən asılı deyil. Bu ümumi bağlılığı göstərən ayələrdən biri də "Qasas" surəsinin sonuncu ayəsidir: "Və Allahla yanaşı başqa heç bir tanrıya ibadət etmə. Allahdan başqa heç bir tanrı yoxdur. Allahdan başqa hər şey məhvə məhkumdur..." Bu ayənin əsasən üçüncü cümləsi yuxarıdakı ayə (Fatir, 15) ilə demək olar ki, eynimənalıdır.

İndi də İbn Sinanın varlıqlar arasındakı bağlılığı göstərən dəlilinə baxaq. İbn Sina deyir:

1) Varlıq iki yerə bölünür: o, ya asılı, ya da müstəqildir. Burada üçüncü istisna yoxdur. Əlimizi hansı varlığın üzərinə qoysaq, əql deyir ki, bu varlıq ya asılı, ya da müstəqildir. Hətta görmədiyimiz varlıqlar haqqında da hökm belədir. Bunu hər bir ağıllı şəxs qəbul edir və bu, aksiomdur. Bu, eynilə riyaziyyatda həqiqi ədədlər barəsində deyilən hökmə bənzəyir: həqiqi ədədlər ya müsbət, ya da mənfidir.

2) Bütün varlıq aləmi iki haldan xaric deyil. Bunlar arasında müstəqil bir varlıq ya vardır, ya da yoxdur:

2.1) Birinci hal: əgər həmin varlıqlar arasında bircə müstəqil varlıq varsa, bu zaman Allah isbat olunur. Yəni Allah elə həmin müstəqil varlıqdır (Quranın dediyi ehtiyacsız varlıq), digərləri isə asılı varlıq olduğundan, onların hamısı bu müstəqil varlığa (Allaha) aiddir. Bunu da bir az sonra haqqında danışacağımız "sonsuz silsilənin" və "dairəviliyin" qeyri-mümkünlüyü isbat edir.

2.2) İkinci hal: Fərz edək ki, bu varlıqlar arasında müstəqil varlıq yoxdur. Bu zaman da iki hal yaranır:

2.2.1) Bu asılı varlıqların sayı ya sonlu (məhdud), ya da sonsuzdur (qeyri-məhdud). Yəni bu varlıqların hamısı asılı varlıq olduğundan, onların bir-birindən asılılıq silsiləsi ya sonsuza qədər davam etməli, ya da qapanmalıdır. Yəni sonsuz olduğundan "A" "B"dən asılıdır, "B" "C"dən, "C" "D"dən, "D" "E"dən və sonsuza qədər bu asılılıq davam edir; ya da məhdud olduğundan, bu asılılıq bir yerdə bitməlidir və nəhayət qapanaraq "E" də "A"dan asılı olmalıdır. Bu, "sonsuz silsilə" və "dairəvilik"dir və hər ikisi də qeyri-mümkündür.

Dairəvilik mümkün deyil: çünki necə ola bilər ki, həm "A" "B"ni, həm də "B" "A"nı yaratmış olsun. Bu silsilə hər nə qədər çox olsa da, məhdud olduğundan, yenə də yuxarıda dediyimiz kimi, "A" "E"ni, "E" də "A"nı yaratmış olur. Deməli, sayı məhdud və bir-birindən asılı bu varlıqların başlanğıcında müstəqil varlıq olmalıdır, çünki heç nə özbaşına yarana bilməz.

2.2.2) Sonsuz silsilə də mümkün deyil, çünki bu silsilənin hansı həddini götürsək, asılı varlıqdır. Belə ki, götürülmüş həddin həmişə iki tərəfi var: asılı olan və özünün asılı olduğu tərəf. Bu da o deməkdir ki, silsilə sonsuza qədər gedə bilməz, hədlərinin sayı nə qədər çox olsa da, bir yerdə dayanmalıdır və başlanğıcında müstəqil varlıq olmalıdır. Bu, bir-birinə söykənmiş sütunlar kimidir. Belə ki, sütunların axırında möhkəm dayanmayan bir sütun olmasa, onların hamısı yıxılmalıdır.

Deməli, bütün asılı varlıqların başlanğıcında hər bir halda, müstəqil varlıq olmalıdır. Burada suallar yarana bilər, müxtəlif iradlar irəli sürülə bilər. Amma bu iradların hamısına fəlsəfə kitablarında lazımi cavablar verilmişdir. Biz isə sadəcə bir misalla Quranın bəzi hökmlərinin əqli biliklər olduğunu göstərmək istədik. Daha geniş və dəqiq baxışa yiyələnmək üçün mütləq fəlsəfə elmləri oxunmalıdır.

Onu da qeyd edək ki, bu metod ilk dəfə Əllamə Təbatəbai Təbrizi ("Mizan" təfsirinin müəllifi) tərəfindən verilmiş "Quranı Quranla təfsir" metoduna təqribən yaxındır. Göründüyü kimi, İbn Sina yuxarıdakı ayəni heç bir hədisdən yararlanmadan, yalnız məntiq və nəzəri əqli biliklərə əsaslanaraq izah etmişdir...

***Rauf İMRANOĞLU***

## Müsəlman liderlər Moskvaya toplaşacaq

Sentyabrın 23-də Moskvanın Sülh prospektində yerləşən məscidin açılış mərasimi keçiriləcək.

Bu məqsədlə müsəlman ölkələrinin başçıları Rusiya paytaxtına toplaşacaqlar. Moskvanın ən böyük məscidinin açılış mərasiminə dəvət olunanlar arasında Azərbaycan, Səudiyyə Ərəbistanı, İordaniya, Fələstin, Qətər, Küveyt, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan, Tacikistan, İran və digər dövlətlərin başçıları var.

"İzvestiya" qəzeti yazır ki, Rusiya Federasiyası Müftilər Şurası məscidin açılış mərasiminin Müqəddəs Qurban bayramı ərəfəsində keçiriləcəyi bildirib. Şuradan İslam dövlətləri başçılarının Moskvada keçirilən görüşünün təkcə mədəni və dini hadisə olmadığını, geosiyasi əhəmiyyət daşıdığı vurğulanıb.

Təntənəli açılış mərasimin sentyabrın 23-də keçirilməsi nəzərdə tutulub. ABŞ, Türkiyə, Hindistan, Sudan, Çad, Liviya, İraq nümayəndə heyətləri iştiraklarını təsdiqləyib.

# Dini qurumların dövlət reyestr məlumatı

## Ləğv olunan dini icmalar

**Hacıqabul rayonu Atbulaq kənd**
**"Cümə" məscidi dini icması**
**Qeydiyyat tarixi: 27.05.2008-ci il**
**Qeydiyyat № 1308H1-494**
Hacıqabul rayonu Atbulaq kənd "Cümə" məscidi dini icmasının (1308H1-494 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 04.05.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 27 may 2015-ci il**

**Zaqatala rayonu Aşağı Çardaxlar kənd**
**"Cümə" məscidi dini icması**
**Qeydiyyat tarixi: 18.12.2008-ci il**
**Qeydiyyat № 1308Z1-526**
Zaqatala rayonu Aşağı Çardaxlar kənd "Cümə" məscidi dini icmasının (1308Z1-526 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 02.05.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 27 may 2015-ci il**

**Şəki rayonu Daşüz kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 18.11.2003-cü il**
**Qeydiyyat № 1306Şə1-363**
Şəki rayonu Daşüz kənd məscidi dini icmasının (1306Şə1-363 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 05.05.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 27 may 2015-ci il**

**Zaqatala rayonu Uzuntala kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 26.10.2006-cı il**
**Qeydiyyat № 325**
Zaqatala rayonu Uzuntala kənd məscidi dini icmasının (325 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 05.05.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 27 may 2015-ci il**

**Şəki rayonu Qoxmuq kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 30.12.2002-ci il**
**Qeydiyyat № 152**
Şəki rayonu Qoxmuq kənd məscidi dini icması təsisçilərinin 13.04.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 06 may 2015-ci il**

**Qobustan rayonu Təklə kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 20.08.2003-cü il**
**Qeydiyyat № 205**
Qobustan rayonu Təklə kənd məscidi dini icması təsisçilərinin 02.04.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 06 may 2015-ci il**

**Oğuz rayonu Kərimli kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 03.12.2007-ci il**
**Qeydiyyat № 130701-410**
Oğuz rayonu Kərimli kənd məscidi dini icması təsisçilərinin 04.04.2015-ci il tarixli, 1 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 06 may 2015-ci il**

**Saatlı rayonu Qarayevkənd kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 06.02.2002-ci il**
**Qeydiyyat № 45**
Saatlı rayonu Qarayevkənd kənd məscidi dini icması təsisçilərinin 11.04.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 06 may 2015-ci il**

**Abşeron rayonu Aşağı Güzdək qəsəbə məscidi dini icması**
**Qeydiyyat tarixi: 03.09.2004-cü il**
**Qeydiyyat № 283**
Abşeron rayonu Aşağı Güzdək qəsəbə məscidi dini icması təsisçilərinin 14.04.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 06 may 2015-ci il**

**Saatlı şəhəri "Cümə" məscidi dini icması**
**Qeydiyyat tarixi: 17.10.1997-ci il**
**Qeydiyyat № 195**
Saatlı şəhəri "Cümə" məscidi dini icması təsisçilərinin 13.04.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 06 may 2015-ci il**

**Goranboy rayonu Borsunlu kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 01.10.2004-cü il**
**Qeydiyyat № 293**
Goranboy rayonu Borsunlu kənd məscidi dini icması təsisçilərinin 06.04.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 06 may 2015-ci il**

**Bakı şəhəri "Mirtağı" məscidi dini icması**
**Qeydiyyat tarixi: 18.01.2002-ci il**
**Qeydiyyat № 11**
Bakı şəhəri "Mirtağı" məscidi dini icması təsisçilərinin 14.04.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 06 may 2015-ci il**

**Quba rayonu Xucbala kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 17.08.2004-cü il**
**Qeydiyyat № 388**
Quba rayonu Xucbala kənd məscidi dini icması təsisçilərinin 02.06.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 19 iyun 2015-ci il**

**Zərdab rayonu Məlikli kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 20.05.2004-cü il**
**Qeydiyyat № 263**
Zərdab rayonu Məlikli kənd məscidi dini icması təsisçilərinin 05.06.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 19 iyun 2015-ci il**

**Ağdaş rayonu Qulbəndə kənd "Cümə" məscidi dini icması**
**Qeydiyyat tarixi: 06.02.2002-ci il**
**Qeydiyyat № 39**
Ağdaş rayonu Qulbəndə kənd "Cümə" məscidi dini icması təsisçilərinin 01.06.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
**Qeydiyyata alınma tarixi: 19 iyun 2015-ci il**

**Zaqatala rayonu Axaxdərə kənd məscidi dini icması**
**Qeydiyyat tarixi: 19.01.2001-ci il**
**Qeydiyyat № 406**
Zaqatala rayonu Axaxdərə kənd məscidi dini icması təsisçilərinin 27.05.2015-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir. Dini icma Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.
Qeydiyyata alınma tarixi: 19 iyun 2015-ci il

## ELAN

*Zaqatala rayonu Uzunqazmala kəndi "Cümə" məscidi dini icmasının (417 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 13.07.2015-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.*



## "Qafqazda mədəni-dini irsin qorunması" mövzusunda beynəlxalq konfrans keçiriləcək

Sentyabrda AMEA İnsan Hüquqları İnstitutu və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "Qafqazda mədəni-dini irsin qorunması" mövzusunda beynəlxalq konfrans keçiriləcək.

AMEA-dan APA-ya verilən xəbərə görə, tədbirdə "Alban abidələrinin qorunması", "Qafqazda mədəni-dini müxtəliflik tarixi ənənə kimi", "Qafqazda mövcud olan etnik münaqişələrin mədəni-dini irsin dağıdılmasına təsiri", "Azərbaycanda mövcud olan multikultural dəyərlər mədəni irs kimi", "Azərbaycan: mədəni və dini birgəyaşayışın modeli", "Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarında tarixi və dini abidələrin məhv edilməsi" mövzuları müzakirə olunacaq.

Konfransda siyasi, iqtisadi, sosial və humanitar elmlər üzrə mütəxəssis və elmi tədqiqatçılar, dövlət və qeyri-dövlət strukturlarının mövzu ilə əlaqəli məsul şəxsləri iştirak edə bilərlər.



## "Müasir dövrdə dinşünaslıq və mədəniyyətin aktual problemləri" kitabı nəşr olunub

Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutu tərəfindən "Müasir dövrdə dinşünaslıq və mədəniyyətin aktual problemləri" (III buraxılış) kitabı nəşr etdirilib.

Toplu müasir dövrdə dinşünaslığın nəzəri məsələləri, dinlərin tarixi və fəlsəfəsi, Azərbaycanda din və mədəniyyətin aktual problemlərinə həsr olunub.

Nəşrin "Din və mədəniyyət" bölməsində İslam öncəsi qədim Şərq mədəniyyəti kontekstində Azərbaycan mədəniyyəti tarixi aspektdə tədqiq edilib, qloballaşma dövründə mədəniyyətin inkişaf istiqamətləri araşdırılıb, din və mədəniyyətin inkişafında multikulturalizm və tolerantlıq müstəqillik dövründə respublikada milli dövlət siyasəti kimi təhlil olunub.

Cəmiyyət və Din
№ 07 (288) / İYUL 2015-ci il

# Ən qədim Quran qaresinin səs yazısı tapılıb



Ən qədim Quran qaresinin səs yazısı tapılıb

Müqəddəs Qurani-Kərim qaresinin 130 il bundan əvvələ aid olan qədim səs yazısı tapılıb.

Müqəddəs Kəbədə ayələri oxuyan naməlum qarenin səsi fonoqrafla 1885-ci ildə yazılıb.

Audioyazı həmin il Niderland hökumətinin təqaüdü ilə Məkkəyə gələn islamşünas Kristian Snuk Qürxonya tərəfindən qeydə alınıb.

İslam dinini qəbul etməsi ehtimalı olunan şərqşünasın Əbdül Qaffar adı ilə də tanınması istisna edilmir.

Beş ay müqəddəs şəhərdə qaldığı bildirilən alim burada bir sıra çəkilişlər edib, müxtəlif audioyazıların qeydiyyatını aparıb.

Xatırladaq ki, 1877-ci il noyabrın 21-də Tomas Edison tərəfindən yaradılmış ilk fonoqraf cihazı səs yazısı aparatıdır. Aparat səsi yazarkən fırlanan barabanın üzərindəki silindrik formalı spiral da açılır ki, bu da nəzərdə tutulan səs yazılarını asanlıqla qeydiyyata ala bilir.

# Üç saata villa



İyul ayında Çinin "ZhuoDa group" adlı şirkəti cəmi bir neçə saat ərzində bina inşa edən modulyar texnologiyanı nümayiş etdirib.

Şirkət üç saat ərzində "International Exhibition Center Plaza" sərgi mərkəzində ikimərtəbəli villa, Sian şəhərində isə bir analoji ev tikilib.

Bina su boruları, santexnika qurğuları və daxili işləmələrlə birlikdə şirkətin ərazisində inşa edilir. Sonra qismən hazır olan ev inşaat meydançasına aparılır. Divarların çapı üçün məxfi materialdan istifadə olunur.

Bu kimi evlərin yekun qiyməti digərləri ilə müqayisədə daha münasibdir, çünki nəqliyyat, tikinti materialları və texnikaya vəsait ödəməyə ehtiyac yoxdur. Ev 9 bal gücündə zəlzələyə, rütubət və oda davamlıdır.

Hazırda 40 dövlət layihəsi üzrə müqavilə imzalamış istehsalçı yeni material üçün 22 patentə malikdir.

# Üzən stadionda dünya çempionatı keçiriləcək



Dünyada ilk dəfə olaraq "Stadiumconcept" memarlıq studiyasının mütəxəssisləri tərəfindən üzən stadionun layihəsi hazırlanıb.

İdman qurğusu 2022-ci ildə keçiriləcək futbol üzrə dünya çempionatı üçün nəzərdə tutulub.

Üzən stadion dəniz və okeanlarda böyük məsafələr qət edərək planetin istənilən şəhərində mühüm futbol çempionatının keçirilməsində əhəmiyyətli rol oynayacaq.

Layihədə ekoloji problemlər də öz həllini tapıb. Nəhəng üzən stadionun əsas enerji mənbələri su, külək və günəş olacaq. Stadionda yarışları 65 min tamaşaçı izləyə biləcək.

Memarlar sözügedən layihəni idman arxitekturası tarixində maraqlı yenilik kimi dəyərləndirirlər.

## Yadigar söz

Siseron
(filosof, siyasi xadim, hüquqşünas)

**Dünyada dostluqdan daha yaxşı və gözəl heç nə yoxdur; həyatımızı dostluqdan məhrum etmək - dünyanı gün işığından məhrum etməyə bərabərdir.**

## Bakı və Abşeron üzrə namaz vaxtları

| Gün | Sübh namazı | Gün çıxır | Zöhr namazı | Əsr namazı | Axşam namazı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 Avqust | 05:15 | 06:37 | 13:51 | 18:22 | 21:13 | 22:47 |
| 2 Avqust | 05:16 | 06:38 | 13:51 | 18:22 | 21:12 | 22:46 |
| 3 Avqust | 05:18 | 06:39 | 13:51 | 18:21 | 21:10 | 22:44 |
| 4 Avqust | 05:19 | 06:40 | 13:51 | 18:21 | 21:09 | 22:43 |
| 5 Avqust | 05:20 | 06:41 | 13:51 | 18:20 | 21:08 | 22:41 |
| 6 Avqust | 05:21 | 06:42 | 13:51 | 18:19 | 21:07 | 22:39 |
| 7 Avqust | 05:23 | 06:43 | 13:50 | 18:19 | 21:06 | 22:37 |
| 8 Avqust | 05:24 | 06:43 | 13:50 | 18:18 | 21:05 | 22:36 |
| 9 Avqust | 05:25 | 06:44 | 13:50 | 18:18 | 21:03 | 22:34 |
| 10 Avqust | 05:27 | 06:45 | 13:50 | 18:17 | 21:02 | 22:32 |
| 11 Avqust | 05:28 | 06:46 | 13:50 | 18:16 | 21:01 | 22:31 |
| 12 Avqust | 05:29 | 06:47 | 13:50 | 18:16 | 20:59 | 22:29 |
| 13 Avqust | 05:30 | 06:48 | 13:50 | 18:15 | 20:58 | 22:27 |
| 14 Avqust | 05:32 | 06:49 | 13:49 | 18:14 | 20:57 | 22:25 |
| 15 Avqust | 05:33 | 06:50 | 13:49 | 18:13 | 20:55 | 22:23 |
| 16 Avqust | 05:34 | 06:51 | 13:49 | 18:12 | 20:54 | 22:22 |
| 17 Avqust | 05:36 | 06:52 | 13:49 | 18:12 | 20:53 | 22:20 |
| 18 Avqust | 05:37 | 06:53 | 13:49 | 18:11 | 20:51 | 22:18 |
| 19 Avqust | 05:38 | 06:54 | 13:49 | 18:10 | 20:50 | 22:16 |
| 20 Avqust | 05:39 | 06:55 | 13:48 | 18:09 | 20:48 | 22:14 |
| 21 Avqust | 05:40 | 06:56 | 13:48 | 18:08 | 20:47 | 22:13 |
| 22 Avqust | 05:42 | 06:57 | 13:48 | 18:07 | 20:45 | 22:11 |
| 23 Avqust | 05:43 | 06:58 | 13:48 | 18:06 | 20:44 | 22:09 |
| 24 Avqust | 05:44 | 06:59 | 13:47 | 18:05 | 20:42 | 22:07 |
| 25 Avqust | 05:45 | 07:00 | 13:47 | 18:04 | 20:41 | 22:05 |
| 26 Avqust | 05:47 | 07:01 | 13:47 | 18:03 | 20:39 | 22:03 |
| 27 Avqust | 05:48 | 07:02 | 13:47 | 18:03 | 20:38 | 22:01 |
| 28 Avqust | 05:49 | 07:03 | 13:46 | 18:02 | 20:36 | 21:59 |
| 29 Avqust | 05:50 | 07:04 | 13:46 | 18:00 | 20:34 | 21:57 |
| 30 Avqust | 05:52 | 07:05 | 13:46 | 17:59 | 20:33 | 21:56 |
| 31 Avqust | 05:53 | 07:06 | 13:45 | 17:58 | 20:31 | 21:54 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim Azərbaycan MEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# VAR OL, DOSTUM!

30 iyul Beynəlxalq Dostluq Günü kimi qeyd edilir. Təqvimin ən gənc bayramlarından olan Dostluq Günü BMT-nin Baş Assambleyası tərəfindən 2011-ci il may ayının 4-də təsis edilmişdir.

Assambleya BMT üzvü olan dövlətlərə müraciətlə, Beynəlxalq Dostluq Gününü öz mədəni adət-ənənələrinə uyğun olaraq lazımi qaydada, o cümlədən ictimaiyyətin maarifləndirilməsi və onun məlumatının artırılmasına yönəlmiş tədbirlər vasitəsilə qeyd etməyə çağırmışdır.

BMT-nin qətnaməsində bu günün dünyanın müxtəlif xalqları arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi məsələsindəki əhəmiyyəti xüsusi vurğulanmışdır: "Xalqlar, ölkələr, mədəniyyətlər və ayrı-ayrı şəxslər arasındakı dostluq münasibətləri sülhün təmin edilməsi səylərinə daha da ruhlandıra bilər və çoxmədəniyyətliliyə ehtiramla yanaşan cəmiyyətlər arasında körpü qurulmasına imkan yaradar".



Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Oqtay ORUCOV *(məsul katib)*, Gennadi ZELMANOVİÇ.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
Qaynar xətt: qaynar_xett@scwra.gov.az
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (055) 635 98 90
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 05 33
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 124

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894